QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 076 (5548) 20 **aprel** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Prezident İlham Əliyev: "Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss etmişəm və hiss edirəm"



Səh 4

**Prezident İlham Əliyev: Azərbaycan xalqı öz taleyinin sahibidir** → 3



**Azərbaycan-Rusiya əlaqələri uğurla inkişaf edir** → 2



**Leyla Əliyevanın "Dünya yuxutək əriyir..." divanı Tehranda fars dilində nəşr olunub** → 3



**Səlim Müslümov: "İlkin informasiyaya görə, 8800 şəxs Prezidentin fərmanından yararlanacaq"** → 6



**Mübariz Qurbanlı: "Din xadimlərinə maddi dəstək veriləcək"** → 6



**PA rəsmisi: "Müsəlman ölkələrində problemlərin kökündə xarici təsirlər dayanır"** → 6



11 → **Fransa mətbuatı: "Sarkisyan hakimiyyətdə qalmaq üçün hər şey etməyə hazırdır"**



12 → **İnqilab və Serj Sarkisyanın devrilməsinin reallığı**



16 → **Azərbaycan ikinci Beynəlxalq həmrəylik tennis çempionatına ev sahibliyi edəcək**



# Azərbaycan-Rusiya əlaqələri uğurla inkişaf edir

## Prezident İlham Əliyev Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisini qəbul edib



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, müdafiə nazirinin birinci müavini Valeri Gerasimovu qəbul edib. AZƏRTAC xəbər verir ki, Valeri Gerasimov İlham Əliyevi prezident seçkilərində inamlı qələbəsi münasibətilə təbrik etdi və bu seçkiləri xalqın dövlətimizin başçısına olan böyük etimadının göstəricisi kimi qiymətləndirdi.***

Azərbaycan Respublikasının Prezidenti təbriklərə görə minnətdarlığını bildirdi. Söhbət zamanı hərbi və hərbi-texniki sahələrdə Azərbaycan-Rusiya uğurlu əlaqələri müzakirə edildi, gələcək qarşılıqlı faydalı əməkdaşlıq haqqında fikir mübadiləsi aparıldı.

Valeri Gerasimov NATO-nun Avropada Müttəfiq Qüvvələrinin Ali Baş Komandanı ilə görüşünə ölkəmizin ev sahibliyi ilə əlaqədar dövlətimizin başçısına minnətdarlıq etdi. Azərbaycan Prezidenti bu görüşün Bakıda keçirilməsini ölkəmizə olan inamın göstəricisi kimi dəyərləndirdi və görüşün beynəlxalq təhlükəsizliyin möhkəmləndirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.

# Prezident İlham Əliyev NATO-nun Avropada Müttəfiq Qüvvələrinin Ali Baş Komandanının başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da NATO-nun Avropada Müttəfiq Qüvvələrinin Ali Baş Komandanı Körtis Skaparottinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, Körtis Skaparotti İlham Əliyevi prezident seçkilərində qələbəsi münasibətilə təbrik etdi. Azərbaycan Prezidenti təbrikə görə minnətdarlığını bildirdi. Söhbət zamanı NATO-Azərbaycan əməkdaşlığının uğurlu inkişafı müzakirə edildi.***

Keçən ilin noyabrında NATO qərargahına səfər etdiyini vurğulayan dövlətimizin başçısı qeyd etdi ki, səfər zamanı NATO-nun baş katibi ilə aparılan fikir mübadiləsi, Şimali Atlantika Şurasının iclasındakı çıxışı və oradakı müzakirələr bir daha Azərbaycan ilə NATO arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu göstərdi.

NATO-nun Avropada Müttəfiq Qüvvələrinin Ali Baş Komandanı Körtis Skaparotti öz tərəfindən NATO-Azərbaycan əməkdaşlığından çox razı olduğunu məmnunluqla bildirərək Azərbaycanın bu təşkilat üçün çox önəmli tərəfdaş ölkə olduğunu qeyd etdi. O, xüsusən Əfqanıstandakı sülhməramlı əməliyyatlarda Azərbaycanın rolunu yüksək qiymətləndirərək bu əməliyyatlar üçün ölkəmizin tranzit və nəqliyyat imkanlarından istifadə edilməsinin önəmini vurğuladı.

Körtis Skaparotti Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ilə görüşünə ölkəmizin ev sahibliyi etdiyi üçün Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Azərbaycan Prezidenti ümidvar olduğunu bildirdi ki, bu görüş beynəlxalq təhlükəsizliyin möhkəmləndirilməsi işinə xidmət edəcək.

# Prezident İlham Əliyev:
# Azərbaycan xalqı öz taleyinin sahibidir

*“İlham Əliyev. İnkişaf - məqsədimizdir” çoxcildliyinin 56-cı kitabı çapdan çıxıb*

***Azərbaycan bir sabitlik adasıdır. Azərbaycanda daxili sabitlik, xalqla iqtidar arasında birlik, vəhdət vardır. Azərbaycanda iqtisadi siyasət möhkəm sosial siyasətlə tamamlanır. Bizim xarici siyasətimiz də birmənalıdır, açıqdır, aydındır və müstəqildir. Bizim müstəqilliyimizin, müstəqil siyasətimizin təməlində də iqtisadi müstəqillikdir. Əgər iqtisadi müstəqillik olmasaydı, əgər biz xarici kreditlərdən asılı olsaydıq, müstəqil siyasət apara bilməzdik. Müstəqillik ən böyük dəyərdir, ən böyük sərvətdir. Müstəqillik o deməkdir ki, xalqımız azaddır, taleyimiz öz əlimizdədir. Azərbaycan xalqı, nəhayət ki, öz taleyinin sahibidir”.***




AZƏRTAC xəbər verir ki, “İnkişaf məqsədimizdir” çoxcildliyinin 56-cı kitabında yer alan bu fikirlər dövlətimizin başçısının 2013-cü il mayın 10-da ümummilli lider Heydər Əliyevin 90 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində söylədiyi nitqdən götürülüb.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin 56-cı kitabındakı materiallar 2013-cü ilin aprelindən mayınadək olan dövrü əhatə edir. Bu kitab Prezident İlham Əliyevin Nazirlər Kabinetinin 2013-cü ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı nitqinin mətni ilə başlanır.

Nəşrdə dövlətimizin başçısının Avstriyaya rəsmi səfəri, Latviya prezidentinin Azərbaycana rəsmi səfəri zamanı apardığı danışıqlara, keçirilən tədbirlərə dair materiallar, prezidentlərin mətbuata birgə bəyanatları ilə bağlı informasiyalar toplanıb.

Çoxcildliyin bu kitabına Azərbaycan Prezidentinin İndoneziya, ABŞ, Çexiya, Rumıniya, Yunanıstan, İsrail, İspaniya, Gürcüstan, Türkiyə və digər dövlətlərin, İslam Əməkdaşlıq Təşkilatı, Avropa İttifaqı, Avropa Parlamenti, ATƏT, NATO, BP şirkəti və digər beynəlxalq qurumların ölkəmizə səfər etmiş yüksəkvəzifəli şəxslərini, Azərbaycanda keçirilən beynəlxalq tədbirlərdə iştirak etmək üçün Bakıya gəlmiş nümayəndə heyətlərini qəbul etməsinə, paytaxtımızda keçirilən I Cənubi Qafqaz Forumunda və digər beynəlxalq tədbirlərdə iştirakına dair materiallar daxil olunub. Azərbaycan Prezidenti bütün görüş və danışıqlarda diqqəti Ermənistanın işğalçılıq siyasətinə yönəldib, dünya ictimaiyyətini regionun inkişafına əngəl törədən Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həllinə dəstək verməyə çağırıb.

Kitabda dövlətimizin başçısının Azərbaycanda həyata keçirilən uğurlu daxili və xarici siyasətə, iqtisadi potensialın möhkəmlənməsi, ordu quruculuğu, regionların sosial-iqtisadi inkişafının təmin olunması istiqamətində önəmli nailiyyətlərə və ölkə həyatının digər sahələrinə dair nitqləri, çıxışları, habelə “Ali audit qurumlarının potensialının gücləndirilməsinin müasir çağırışları” mövzusunda IV beynəlxalq konfransın, “MDB müsəlmanları sülh və sabit inkişaf tərəfdarıdırlar” beynəlxalq elmi-praktik konfransın, Kənd Təsərrüfatı Kreditləri üzrə Beynəlxalq Konfederasiyanın 43-cü konfransının, “Bakı Ürək Günləri” III Beynəlxalq Konqresinin iştirakçılarına müraciətlərinin mətnləri də yer alıb.

Bu cilddə, həmçinin dövlətimizin başçısının Hacıqabul, Abşeron, Qobustan və Şamaxı rayonlarına, Mingəçevir və Sumqayıt şəhərlərinə səfərlərinə, bölgələrdə ictimaiyyət nümayəndələri ilə görüşlərinə, bir sıra mədəni-məişət, sosial və sənaye müəssisələrinin açılışında iştirakına dair materiallar toplanıb. Kitaba “Qeydlər”, “Şəxsi adlar”, “Coğrafi adlar” göstəriciləri də daxil edilib. “Azərnəşr” tərəfindən buraxılan 56-cı kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

## Rəsmi xronika

Prezident İlham Əliyev Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev “Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev “Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 8 fevral tarixli 278 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 22 aprel tarixli 744 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Giriş-çıxış və qeydiyyat” idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 18 iyul tarixli 538 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Əfvetmə haqqında Əsasnamə”də dəyişikliklər edilməsi barədə Fərman imzalayıb.

# Leyla Əliyevanın “Dünya yuxutək əriyir...” divanı Tehranda fars dilində nəşr olunub

***Heydər Əliyev Fondunun vitse-prezidenti, şairə Leyla xanım Əliyevanın “Dünya yuxutək əriyir...” divanı Tehran şəhərində fars dilində nəşr olunub.***




AZƏRTAC xəbər verir ki, divan “Kaspi” qəzeti və “Kaspi” Təhsil Şirkətinin “Azərbaycan ədəbiyyatını dünyada tanıdaq!” devizi altında bir neçə ildir həyata keçirdiyi layihələr çərçivəsində Tehranın məşhur Mobini-Əndişə yayım evinin Nevis mətbəəsində nəfis tərtibatda farsdilli oxucuların görüşünə gəlib. “Azərbaycan ədəbiyyatını dünyada tanıdaq!” layihəsinin rəhbəri yazıçı-publisist Sona Vəliyevanın təşəbbüsü ilə indiyədək İranda və Türkiyədə böyük Azərbaycan şairi və dramaturqu Hüseyn Cavidin “Peyğəmbər”, “Topal Teymur”, “Şeyx Sənan”, “Maral” əsərləri, “Cavid xəzinəsindən” adlı toplu, bundan başqa, bir çox xarici ölkə və keçmiş sovet respublikalarında müasir şair və yazıçılarımızın ən maraqlı yaradıcılıq nümunələri tərcümə olunaraq oxuculara təqdim edilib.

“Dünya yuxutək əriyir...” divanı bəhs olunan layihənin fars dilinə tərcümə edilmiş və nəfis nəşri təmin olunmuş növbəti uğurlu addımıdır. Leyla Əliyevanın yüksək dünyagörüşünü, daxili aləminin ecazkar zənginliyini, nadir poetik yaradıcılıq üslubunu, qəlbində köklənən sönməz ədalət hissini və duyğularını tərənnüm edən şeirlər fars dilinə görkəmli tərcüməçi-şair Əkbər Əlyar Həmidi və tanınmış şairə, yazıçı-publisist Süsən Nəvadə Rəzi tərəfindən peşəkarlıqla tərcümə olunaraq divana daxil edilib.

Qeyd etmək lazımdır ki, İran İslam Respublikasının ədəbi mühitində öz yaradıcılıq dəstxətləri ilə seçilən Əkbər Əlyar Həmidi və Süsən Nəvadə Rəzi təkcə mütərcim kimi deyil, şair və tənqidçi kimi də böyük nüfuz sahibidirlər.

“Dünya yuxutək əriyir...” divanının fars versiyasına yazdığı ön sözdə mütərcim Əkbər Əlyar Həmidi qeyd edir: “İftixarla deyə bilərəm ki, geniş ictimai-siyasi fəaliyyəti, elitar ailə mənsubiyyəti ilə tanınan şairə zəngin fəlsəfi baxışlarına, nadir yaradıcılıq dünyası və poeziya səltənəti ilə bizə Xan qızı xatın Xurşidbanu Natəvanı xatırladaraq oxucunu heyrətdə qoyur... Divanın farsdilli oxucular tərəfindən böyük maraqla qarşılanacağına sonsuz ümid bəsləyirik”.

Leyla xanım özünün zəngin dünyagörüşü, fitri yaradıcılıq istedadı, nadir poetik üslubu, təbiət hadisələri ilə insan hissləri arasındakı bağlılığı tərənnüm etmək qabiliyyətinə görə müasir ədəbiyyatımızda xüsusi seçilir. Heç şübhəsiz ki, “Dünya yuxutək əriyir...” divanı dünya ədəbiyyatında böyük və əzəmətli yeri olan fars dilində yazılmış əsərlər sırasında özünə layiq yer qazanacaq, divandakı şeirlərin bir çoxu qonşu ölkənin bəstəkar və müğənniləri, eləcə də farsdilli poeziyasevərlər üçün cəlbedici olacaq.

Nəşrin rəhbəri və poetik ön sözün müəllifi AZƏRTAC-ın Türkiyə üzrə xüsusi müxbiri, siyasi elmlər üzrə fəlsəfə doktoru, yazıçı-publisist Sabir Şahtaxtıdır. “Dünya yuxutək əriyir...” divanı ilə tanış olmaq istəyən farsdilli oxucular kitabı Azərbaycanın və İranın əksər böyük kitabxanalarından və satış məntəqələrindən əldə edə bilərlər.

Qeyd edək ki, nəşrin təşəbbüskarları divanın yaxın gələcəkdə İran İslam Respublikasında ərəb qrafikası ilə Azərbaycan dilində nəşrini də nəzərdə tuturlar.

# Prezident İlham Əliyev: "Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss etmişəm və hiss edirəm"



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev andiçmə mərasimində etdiyi çıxışında aprelin 11-də keçirilmiş prezident seçkisi ilə bağlı bir sıra mühüm məqamlara toxunaraq, ilk öncə, vurğulayıb ki, əldə edilən qələbə, bilavasitə Azərbaycan xalqının Ona göstərdiyi dəstəyin məntiqi nəticəsidir. Məhz bu faktoru önə çəkən ölkə başçısı vurğulayıb ki, həmin dəstək Ona güc verir. SİTAT: "İlk növbədə, bir daha mənə bu seçkilərdə göstərilən yüksək etimada görə, doğma Azərbaycan xalqına dərin təşəkkürümü bildirmək istəyirəm. Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss etmişəm və hiss edirəm. Bu dəstək mənə güc verir. Mən bu dəstəyə arxalanıram və xalqı, bir daha əmin etmək istəyirəm ki, bundan sonra da xalqa və Vətənə ləyaqətlə xidmət edəcəyəm".***

Söz yox ki, seçkilərin nəticəsi, həmçinin, Azərbaycan xalqının Cənab İlham Əliyevi alternativsiz Lider olaraq qəbul etməsi və dəyərləndirməsidir. Bu baxımdan, Prezident İlham Əliyev çıxışında onu da vurğulayıb ki, prezident seçkiləri Azərbaycan xalqının iradəsini əks etdirib: "Azərbaycan xalqı görülən işlərə yüksək qiymət vermişdir, görülən işlərə səs vermişdir. İnkişafa, tərəqqiyə, təhlükəsizliyə, gələcək inkişafımıza səs vermişdir. Seçkilər ədalətli və şəffaf şəkildə keçirilmişdir. Seçkilərdən əvvəl yerli və beynəlxalq təşkilatlar tərəfindən keçirilmiş rəy sorğuları, seçkilər günü yenə də beynəlxalq və yerli təşkilatlar tərəfindən keçirilmiş "exit-poll"lar seçkilərin rəsmi nəticələri ilə üst-üstə düşür. Bu, bir daha onu göstərir ki, seçkilər xalqımızın iradəsini, onun fikirlərini əks etdirir".

## "Xalq-iqtidar birliyi bizim uğurlarımızın əsas şərtidir"

Həmçinin, qeyd edə bilərik ki, Azərbaycanda mövcud olan xalq-iqtidar birliyi, bilavasitə İlham Əliyev Cənablarına göstərilən yüksək etimadın göstəricisidir. Daha dəqiq desək, məhz xalqla iqtidar arasında mövcud olan vəhdət dövlətimizin daha da güclənməsinə və qüdrətlənməsinə münbit şərait yaradır. Bu baxımdan, Prezident İlham Əliyev bu kimi faktorları önə sürərək qeyd edib: "Mən 2003-cü ildə, prezident seçkiləri ərəfəsində xalqa müraciət edərək demişdim ki, əgər mənə xalq etimad göstərərsə, mən Ulu Öndər Heydər Əliyev siyasətinə sadiq qalacağam, bu siyasəti davam etdirəcəyəm. Mən fəxr edirəm ki, xalq mənə inandı, məni dəstəklədi və mən də, öz növbəmdə, sözlərimə əməl etdim. Son 15 il ərzində Azərbaycanda hərtərəfli inkişaf təmin edilmişdir. Bunun əsas şərti ondan ibarətdir ki, biz Ulu Öndərin yolu ilə gedirik. Onun qoyduğu yol yeganə düzgün yoldur və Azərbaycanın müstəqillik tarixi bunun əyani sübutudur".

"Son 15 il ərzində bu yolla gedərək, biz böyük uğurlara imza atdıq, Azərbaycan xalqı təhlükəsizlik, sabitlik şəraitində yaşamışdır"- deyə vurğulayan ölkə başçımız onu da qeyd edib ki, bu 15 il ərzində dünyanın müxtəlif bölgələrində, bizim bölgəmizdə, Avropada çox təhlükəli proseslər baş verirdi: "Qanlı toqquşmalar, müharibələr, vətəndaş müharibələri, dövlət çevrilişləri. Yəni təhlükəsizlik baxımından son 15 il çox gərgin keçmişdir. Azərbaycanda isə xalqımız təhlükəsizlik şəraitində yaşamışdır. Biz daxili risklərin hamısını aradan qaldırdıq, xarici risklərdən isə özümüzü qoruya bilmişik, bu gün də qoruyuruq, əminəm ki, bundan sonra da qoruyacağıq. Azərbaycan xalqı bu 15 il ərzində sabitlik şəraitində yaşamışdır. Bu da inkişafımız üçün əsas şərtdir. Biz görürük ki, sabitlik pozulanda inkişafdan söhbət gedə bilməz. Sabitlik pozulanda xarici müdaxilə baş verir, ölkələr idarəolunmaz vəziyyətə düşür, qardaş qanı tökülür və ölkələrin gələcəyi böyük sual altına düşür. Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqıdır və bizim siyasətimizdir. Ona görə xalqiqtidar birliyi bizim uğurlarımızın əsas şərtidir. Azərbaycan bu gün dünya miqyasında sabitlik məkanı, sabitlik adası kimi tanınır və bu, bizim böyük nailiyyətimizdir".

## "Ötən 15 il demokratik inkişaf baxımından çox uğurlu dövr olmuşdur"

Ölkə rəhbərimizin toxunduğu daha bir önəmli məqam Azərbaycanın demokratik cəhətdən inkişafı və tərəqqisidir. Ötən illər ərzində ölkəmizdə bütün azadlıqlar təmin edilib və geridə qalan 15 il əldə edilən çoxsaylı uğurların təməlidir: "Bu 15 il ərzində Azərbaycanda demokratik inkişaf çox sürətlə getmişdir, Azərbaycanda bütün azadlıqlar təmin edilmişdir. Hesab edirəm ki, bu 15 il demokratik inkişaf baxımından çox uğurlu illər olmuşdur. Biz siyasi islahatları dərinləşdirərək, bütün azadlıqları - söz azadlığını, mətbuat azadlığını, sərbəst toplaşma azadlığını, siyasi fəaliyyət azadlığını təmin etmişik. Təkcə onu demək kifayətdir ki, bu gün Azərbaycan vətəndaşlarının 80 faizi internet istifadəçiləridir və internet Azərbaycanda azaddır. Yəni demokratik inkişafla bağlı bizim siyasətimiz çox düzgün siyasətdir və bizim milli maraqlarımızı təmin edir. Biz bunu kiminsə xoşuna gəlmək üçün yox, ona görə edirik ki, Azərbaycanda siyasi islahatlar daha da dərinləşsin, Azərbaycan xalqı həmişə öz taleyinin sahibi olsun, necə ki, bu gün Azərbaycan xalqı öz taleyinin sahibidir və seçkilər, onun nəticələri bunu bir daha təsdiqləyir".

Dövlət başçısı çıxışı zamanı ölkəmizdə siyasi mübarizə mədəniyyətinin də müsbət tərəfə istiqamət aldığını vurğulayaraq, bunu seçki prosesi dövründə namizədlərin çıxışları ilə əlaqələndirib və tənqidi fikirləri alqışladığını deyib: "Deyə bilərəm ki, son 15 il ərzində Azərbaycanda siyasi mübarizə mədəniyyəti istiqamətində də müsbət meyillər müşahidə olunur və prezident seçkiləri kampaniyası bunu bir daha göstərir. Namizədlərin çıxışlarında kifayət qədər kəskin tənqidi fikirlər səslənmişdir, mən bunu alqışlayıram, müsbət hal kimi qiymətləndirirəm. Bu, siyasi mübarizənin düzgün istiqamətdə inkişaf etməsindən xəbər verir. Qeyd etməliyəm ki, prezident seçkiləri kampaniyası zamanı namizədlər tərəfindən qaldırılmış məsələlərə diqqətlə baxılacaq və dəyərli təkliflər nəzərə alınacaqdır. Bir sözlə, bu 15 il ərzində, biz çalışmışıq ki, Azərbaycanda siyasi mübarizə sivil qaydada təmin olunsun və buna böyük dərəcədə nail ola bilmişik".

## "Milli satqınlıq nümayiş etdirən ünsürlərə Azərbaycan xalqı bir daha öz yerini göstərdi"

Seçkilər ərəfəsində bir sıra anti-milli ünsürlər Azərbaycanda mövcud olan sabitlik və inkişafa, demokratik mühitə var gücləri ilə kölgə salmağa, bununla, Azərbaycanın düşmənlərinə yarınmağa cəhdlər göstərirdilər. Lakin yuxarıda da qeyd edildiyi kimi, məhz xalq-iqtidar birliyinin sarsılmaz mövcudluğu belə satqınların ayaq açıb yürümələrinə imkan vermədi. Andiçmə mərasimindəki çıxışında bu kimi amillərə də toxunan Prezident İlham Əliyev deyib: "O ki qaldı, antimilli qruplaşmaya, onlar tam marginallaşıb. Bu seçkilər, bir daha göstərdi ki, onların Azərbaycanın siyasi səhnəsində yeri yoxdur. Onların yerini Azərbaycan xalqı çoxdan müəyyən edib, bu da tarixin zibilxanasıdır. Xarici qrant, ianə hesabına fəaliyyət göstərən, öz dövlətinə qarşı çıxış edən, bir çox hallarda milli satqınlıq nümayiş etdirən ünsürlərə Azərbaycan xalqı bir daha öz yerini göstərdi. Seçkilərdən əvvəl və seçkilərdən sonra onların təşkil etdikləri yığıncaqlar, bir daha onu göstərir ki, Azərbaycan xalqı heç vaxt imkan verməz ki, xaricdən idarə olunan qruplaşma Azərbaycanda hansısa mövqeyə sahib olsun. Biz bundan sonra da demokratik inkişafla bağlı səylərimizi artıracağıq, gələcək fəaliyyətimizdə də bu istiqamət önəmli yer tutacaqdır".

## "Azərbaycan xalqı vahid milli ideya - azərbaycançılıq ideyası ətrafında sıx birləşib"

Əlbəttə, anti-milli ünsürlərin qarşısına sədd çəkən mühüm faktorlardan biri də Azərbaycanda milli ideologiyanın formalaşması, əsaslı yer tutmasıdır. Ümumiyyətlə, milli ideologiya çərçivəsində dinlərarası və millətlərarası münasibətlərin yüksək səviyyədəki mövcudluğu, əslində, digər ölkələrə nümunə kimi göstərilə bilər. Bu kimi əhəmiyyətli meyarları önə sürən ölkə başçımız qeyd edib ki, Azərbaycan bu 15 il ərzində uğurla inkişaf edib: "Azərbaycan xalqı birlik və həmrəylik nümayiş etdirib. Bizim gələcək fəaliyyətimiz üçün milli ideologiyamız əsas rol oynayır. Azərbaycançılıq məfkurəsi Azərbaycanda tam bərqərar olub, Azərbaycan xalqı vahid milli ideya ətrafında birləşib və ölkəmiz çox uğurla inkişaf edir. Azərbaycanda dinlərarası, millətlərarası münasibətlər nümunəvi xarakter daşıyır. Azərbaycanda bütün xalqların, dinlərin nümayəndələri bir ailə kimi mehribanlıq şəraitində yaşayır və bundan sonra da yaşayacaqdır. Bizim siyasətimiz və cəmiyyətin istəkləri bu istiqamətdə atılacaq addımları da şərtləndirəcək.

Azərbaycan ölkə daxilində dinlərarası, millətlərarası münasibətlərin tənzimlənməsində çox böyük uğurlara nail olub və biz son 15 il ərzində bunu dünyaya nümayiş etdirmişik. Təkcə ona görə yox ki, özümüzü göstərək, ona görə ki, dünyada da müsbət meyillər üstünlük təşkil etsin. Əfsuslar olsun ki, son 15 il ərzində dünyada bu istiqamətdə çox təhlükəli proseslər cərəyan edib. İslamofobiya, ksenofobiya, ayrı-seçkilik, artıq bəzi ölkələrdə dövlət siyasətinə çevrilir, başqa millətlərin və dinlərin nümayəndələrinə mənfi münasibət göstərilir. Ona görə biz çalışmışıq və bundan sonra da çalışacağıq ki, öz nümunəmizi göstərərək, sübut edək ki, multikulturalizm yaşayır və yaşamalıdır. Eyni zamanda, biz öz milli- mənəvi dəyərlərimizə sadiqik, buna bağlıyıq və təsadüfi deyil ki, 2016-cı və 2017-ci illər Azərbaycanda "Multikulturalizm" və "İslam Həmrəyliyi" illəri elan olunmuşdur".

Göründüyü kimi, bu gün əldə edilən hər bir uğurun təməlində bir sıra önəmli faktorlar dayanır və bu faktorların hər biri Azərbaycanın yaxın zamanlarda daha güclü dövlətə çevrilməsinə kifayət qədər zəmin yaratmaqdadır. Çünki təməlində xalq-iqtidar vəhdəti olan dövlət sarsılmaz və qüdrətlidir. Belə bir qüdrətli dövlətin rəhbəri isə xalqının Lideri və hər bir azərbaycanlının Prezidenti - Cənab İlham Əliyev!

***RÖVŞƏN NURƏDDİNOĞLU***

# Küveyt qəzetində Aida İmanquliyevanın həyat və yaradıcılığına dair məqalə dərc olunub



Küveyt Universitetinin geniş oxucu auditoriyasına malik həftəlik "Afaq" qəzetində bu ali təhsil müəssisəsinin Dillər Mərkəzində oxuyan azərbaycanlı tələbə Elnurə Süleymanovanın şərqşünas alim, pedaqoq, filologiya elmləri doktoru, professor Aida İmanquliyevanın həyat və yaradıcılığına dair məqaləsi dərc olunub.

Səfirlikdən AZƏRTAC-a bildirilib ki, məqalədə oxuculara professor Aida İmanquliyevanın orta məktəbi qızıl medalla bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinə daxil olması və elə həmin universitetin Şərq xalqları və ədəbiyyat tarixi kafedrasını fərqlənmə diplomu ilə bitirməsi və daha sonra keçmiş SSRİ Elmlər Akademiyasının Asiya xalqları İnstitutunun aspiranturasında təhsil alması barədə geniş məlumat verilib.

Müəllif qeyd edir ki, A.İmanquliyeva qısa müddət ərzində namizədlik dissertasiyasını müdafiə edib, məhcər ədəbiyyatının görkəmli nümayəndələrindən olan Mixail Nuaymə və Cübran Xəlil Cübran haqqında monoqrafiyalar yazıb. Alim istedadı və əməksevərliyi sayəsində qısa zamanda keçmiş Sovet İttifaqında yeni ərəb ədəbiyyatının ən tanınmış mütəxəssislərindən birinə çevrilib.

Vurğulanır ki, A.İmanquliyeva Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda kiçik elmi işçi kimi fəaliyyətə başlayıb, 1973-cü ildə həmin institutda baş elmi işçi kimi çalışıb, 1976-cı ildən ərəb filologiyası şöbəsinin müdiri, 1988-ci ildən elmi işlər üzrə direktor müavini, daha sonra isə ömrünün son günlərinədək Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun direktoru vəzifələrində çalışıb.

Məqalədə məlumat verilir ki, A.İmanquliyeva 1989-cu ildə Tbilisi şəhərində müvəffəqiyyətlə doktorluq dissertasiyası müdafiə edib, ilk azərbaycanlı qadın-ərəbşünas elmlər doktoru, tezliklə bu ixtisas üzrə professor adını alıb.

# Bakıda İƏT Gənclər və İdman Nazirlərinin 4-cü sessiyası başa çatıb



Aprelin 19-da Bakı şəhərində İslam Əməkdaşlıq Təşkilatı (İƏT) ölkələri Gənclər və İdman Nazirləri (GİN) Konfransının 4-cü sessiyası öz işini başa çatdırıb. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin ev sahibliyi ilə həyata keçirilən tədbir İslam Əməkdaşlıq Təşkilatı, Dialoq və Əməkdaşlıq üzrə İslam Konfransı Gənclər Forumu (İƏT Gənclər Forumu) və İslam Həmrəyliyi və İdman Federasiyasının (İƏT İdman Federasiyası) birgə təşkilatçılığı ilə reallaşıb.

Nazirlikdən AZƏRTAC-a bildiriblər ki, iki gün davam edən konfransda İƏT Gənclər strategiyası, Ortaq Gənclər Fəaliyyəti və İdman üzrə qətnamələr, konfransın yekun hesabatı, nazirlərin görüşünün 5-ci sessiyanın tarixi və yerinin müəyyənləşdirilməsi ilə bağlı qərar, eləcə də yekun Bakı Bəyannaməsi müzakirə olunaraq qəbul edilib.

Bakı tədbirinin özəl cəhətlərindən biri İƏT tarixində ilk dəfə olaraq bu arealda konkret sahələr - təhsil, elm, məşğulluq, biznes və s. üzrə gənclərin inkişafına xidmət edəcək Gənclər strategiyası, eləcə də bu quruma üzv olan ölkələrin gənclik siyasəti sahəsində fəaliyyətini əlaqələndirəcək Ortaq Gənclər siyasətinin qəbul edilməsidir. 2025-ci ilədək dövrü əhatə edəcək bu fəaliyyət planları İƏT ölkələrində gənclərlə bağlı ən əhatəli sənəddir. Bu sənədlərin qəbulu Azərbaycanın İƏT ölkələrinin gənclər siyasəti sahəsinə verdiyi önəmli töhfələrdən biri hesab olunur. Konfransın yekun Bakı Bəyannaməsində bütün qəbul edilən qərarlara üzv ölkələrin öhdəlikləri qeyd olunmaqla yanaşı, Azərbaycan dövləti ilə həmrəylik və tam dəstək nümayişi olaraq ölkəmizin ərazi bütövlüyünün bərpası, qaçqınların geri qaytarılması, İƏT Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş koordinatoru Leyla Əliyevanın təşəbbüsü ilə keçirilən "Xocalıya ədalət!" kampaniyasına dəstək verilməsinə üzv dövlətlərin dəvəti, işğal olunmuş ərazilərdə bütün növ gənclər və idman tədbirlərinin boykotu kimi müddəalar da öz əksini tapıb.

Bakı Bəyannaməsində, eyni zamanda, Azərbaycan Prezidenti İlham Əliyevin bu il aprelin 11-də keçirilən prezident seçkilərində qalib gəlməsi münasibətilə üzv dövlətlərin yekdil təbriki də əks olunub.

Tədbirdə İƏT Gənclər və İdman nazirlərinin 5-ci sessiyasının 2020-ci ildə Səudiyyə Ərəbistanında keçirilməsi qərara alınıb. İƏT GİN nazirləri Bakı toplantısında 40-dan çox İƏT ölkəsini təmsil edən gənclər və idman üzrə nazirlər, agentlik və komitə sədrləri, eləcə də aparıcı beynəlxalq təşkilat nümayəndələri iştirak edib.



# Bakıda "Mənəvi dəyərlərin təbliği: reallıqlar, perspektivlər" mövzusunda konfrans keçirilib

Aprelin 19-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə Bakıda "Mənəvi dəyərlərin təbliği: reallıqlar, perspektivlər" mövzusunda konfrans keçirilib. AZƏRTAC xəbər verir ki, konfransda DQİDK-nın rəhbərliyi, Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru və Himayəçilər Şurasının üzvləri, ölkəmizdə fəaliyyət göstərən dini konfessiya rəhbərləri, din xadimləri, gənclər, ictimaiyyət nümayəndələri iştirak ediblər. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin səlahiyyətlərini icra edən Mübariz Qurbanlı çıxış edərək bildirib ki, konfransın keçirilməsində məqsəd Mənəvi Dəyərlərin Təbliği Fondunun fəaliyyəti haqqında ictimaiyyətə məlumat vermək, eyni zamanda, mənəvi dəyərlərimizin təbliği ilə bağlı müzakirələr aparmaqdır. Xalqımız özünəməxsus milli mənəvi dəyərlərə sahibdir, bu dəyərlərin qorunub saxlanılması vacib məsələlərdən biridir. Milli mənəvi dəyərlərin özündə böyük milli əxlaqi və bəşəri duyğuları təcəssüm etdirdiyini diqqətə çatdıran Mübariz Qurbanlı buraya azərbaycançılıq ideologiyası, dilimiz, dinimiz, vətənimiz, müstəqilliyimiz və bu kimi amillərin aid olduğunu deyib.

Azərbaycanın müstəqilliyini bərpa etdikdən sonra xalqımızın milli mənəvi dəyərlərə qayıdışının sürətləndiyini deyən Mübariz Qurbanlı ölkəmizdə dinlər və etnik qruplar arasındakı münasibətlərin ümummilli lider Heydər Əliyevin dövlətçilik konsepsiyasına uyğun olaraq daha da möhkəmləndiyini, bu sahənin dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrildiyini qeyd edib. O, ən böyük dəyərlərimizdən biri olan azərbaycançılıq ideologiyasının ulu öndər Heydər Əliyev tərəfindən dövlətçilik siyasətinə daxil edildiyini deyib. Vurğulayıb ki, Ulu Öndərin layiqli davamçısı olan Prezident İlham Əliyev milli mənəvi dəyərlərimizin qorunması istiqamətində mühüm addımlar atır. Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılması da bu sahəyə verilən dəyərin göstəricisidir. Fondun qarşısında böyük vəzifələrin qoyulduğunu deyən Mübariz Qurbanlı bu istiqamətdə Qafqaz Müsəlmanları İdarəsi, kütləvi informasiya vasitələri, vətəndaş cəmiyyətləri, habelə müvafiq dövlət qurumları ilə əməkdaşlığın önəminə diqqət çəkib.

Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov Fondun fəaliyyət istiqamətləri və hədəfləri barədə məlumatları əks etdirən geniş təqdimatla çıxış edib. O, Fondun mənəvi dəyərlərin qorunması və inkişafı, bu sahədə sosial layihələrin reallaşdırılması, habelə vətəndaşların dini etiqad azadlığının həyata keçirilməsinə dövlət dəstəyinin verilməsi istiqamətində fəaliyyət göstərəcəyini bildirib. İcraçı direktor cəmiyyətdə mənəvi dəyərlərə bağlılığın gücləndirilməsinin və gələcək nəsillərə çatdırılmasının, milli birlik və həmrəyliyimizin möhkəmləndirilməsinin, mənəvi dəyərlərimizin təbliği vasitəsilə Azərbaycan mədəniyyətinin inkişafına töhfələr verilməsinin, eləcə də cəmiyyətdə tarixən xalqımıza xas olan xeyriyyəçilik ənənələrinin dirçəldilməsinin Fondun əsas hədəfləri sırasında yer aldığını diqqətə çatdırıb. Prezidenti Administrasiyasının millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin böyük məsləhətçisi Ceyhun Məmmədov bildirib ki, Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılması dini sahəyə göstərilən diqqətin bariz nümunəsidir. Bu gün bir çox müsəlman ölkələrində olan problemlərin kökündə xarici təsirlər dayanır. Hər hansı bir milləti, dövləti məhv etmək üçün milli, dini dəyərlər istifadə olunub və bu istiqamətdə ölkədə problemlərin yaradılmasına cəhdlər edilib. Zaman-zaman Azərbaycanda da kənardan müəyyən təsirlər hiss olunub, dini vəziyyətin gərginləşdirilməsi ilə bağlı müəyyən qüvvələrin fəaliyyət göstərdiyi müşahidə edilib, ancaq Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində buna nail ola bilməyiblər.

2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi İli" elan olunması, Mənəvi Dəyərlərin Təbliği Fondu və İlahiyyat İnstitutunun yaradılması, Cocuq Mərcanlıda Şuşa məscidinin oxşarının inşa olunması, bu günlərdə Hacı Cavad məscidinin yeni binasının istifadəyə verilməsi dövlətimizin başçısının milli mənəvi dəyərlərimizə göstərdiyi xüsusi diqqətin təzahürüdür.

Qafqaz Müsəlmanları İdarəsinin Aparat rəhbəri Simran Həsənov bildirib ki, Prezident İlham Əliyevin ölkədə sabitliyin qorunub saxlanılması istiqamətində apardığı siyasətin nəticəsidir ki, xalq növbəti dəfə ona etimad göstərdi. Dövlətimizin başçısı milli mənəvi dəyərlərimizin qorunmasına xüsusi diqqət və qayğı göstərir. Prezident seçkilərindən dərhal sonra onun Hacı Cavad məscidinin açılışında iştirakı, dindarlarla görüşü və bütün Qafqazın Müftisi Hacı Salman Musayevi yüksək dövlət mükafatı ilə təltif etməsi ölkəmizdə İslam dəyərlərinə böyük önəm verilməsini bir daha təsdiq edir. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini, Mənəvi Dəyərlərin Təbliği Fondunun Himayəçilər Şurasının üzvü Aynur Sofiyeva qeyd edib ki, Mənəvi Dəyərlərin Təbliği Fondunun qarşısında mühüm məqsədlər və hədəflər dayanır. O, bu istiqamətdə fəaliyyətin uğurlu olması üçün Himayəçilər Şurasının da üzərinə böyük məsuliyyətin düşdüyünü vurğulayıb.

Daha sonra çıxış edən Rus-Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının nümayəndəsi Konstantin Pominov, Bakı şəhəri Dağ yəhudiləri dini icmasının sədri Melih Yevdayev, AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru, Mənəvi Dəyərlərin Təbliği Fondunun Himayəçilər Şurasının üzvü Teymur Kərimli, "Səs" Media Qrupunun rəhbəri, Mənəvi Dəyərlərin Təbliği Fondunun Himayəçilər Şurasının üzvü Bəhruz Quliyev, Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili, Konstitusiya Araşdırmalar Fondunun rəhbəri, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yanında İctimai Şuranın sədri Əliməmməd Nuriyev və Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun nümayəndəsi Xatirə Hüseynova milli mənəvi irsimizin gələcək nəsillərə çatdırılmasının, bu dəyərlərə bağlılığın qorunub saxlanılmasının, tolerantlıq mühitinin təbliğinin önəmindən danışıblar.

## Mübariz Qurbanlı: "Din xadimlərinə maddi dəstək veriləcək"



"Dövlətdən maaş alacaq din xadimlərinin siyahısı Mənəvi Dəyərlərin Təbliği Fonduna təqdim edilib". SİA-nın verdiyi məlumata görə, bunu jurnalistlərə açıqlamasında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin səlahiyyətlərini icra edən Mübariz Qurbanlı deyib.

Komitə sədrinin sözlərinə görə, hazırda fond bu məsələ üzərində işləyir: "Siyahı dəqiqləşdirilir, fondla Qafqaz Müsəlmanları İdarəsi bu istiqamətdə fəaliyyət göstərir. Himayəçilər Şurası da bu məsələni müzakirə edib". M.Qurbanlı qeyd edib ki, yaxın vaxtlarda həmin maddi dəstəklər məscidlərdə çalışan din xadimlərinə veriləcək: "Fondun vəsaiti yalnız dövlətdən deyil, həm də müxtəlif növ ianələrdən də əldə olunacaq. Dəstək din xadiminin tutduğu vəzifəyə görə fərqli olacaq. Daha çox əmək haqqını imam alacaq. Naxçıvan Muxtar Respublikasında çalışan din xadimlərinə də fonddan maddi dəstək veriləcək".

## PA rəsmisi: "Müsəlman ölkələrində problemlərin kökündə xarici təsirlər dayanır"




"Bu gün bir çox müsəlman ölkələrində problemlərin kökündə xarici təsirlər dayanır". SİA-nın verdiyi məlumata görə, bunu Prezident Administrasiyasının millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin böyük məsləhətçisi Ceyhun Məmmədov Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə "Mənəvi dəyərlərin təbliği: reallıqlar, perspektivlər" adlı konfransda çıxışı zaman deyib. Onun sözlərinə görə, tarixən Azərbaycanda dini vəziyyəti gərginləşdirmək üçün kənardan cəhdlər olub: "Hər hansı bir milləti, dövləti məhv etmək üçün milli, dini dəyərlər istifadə olunub və bu istiqamətdə ölkədə problemlərin yaradılmasına cəhdlər edilib. Zaman-zaman Azərbaycanda da kənardan müəyyən təsirlər hiss olunub, Azərbaycanda dini vəziyyətin gərginləşdirilməsi ilə bağlı müəyyən qüvvələrin fəaliyyət göstərdiyi müşahidə olunub, ancaq dövlətin, Prezidentin həyata keçirdiyi uğurlu siyasət sayəsində buna nail ola bilməyiblər və bu gün biz dini sahədə irəliləyişlərə nail olmuşuq".

C.Məmmədov vurğulayıb ki, Prezident İlham Əliyev din sahəsinə böyük qayğı göstərir. PA rəsmisi bildirib ki, Azərbaycana kənar təsirlərin qarşısının alınması yalnız dövlətin vəzifəsi deyil, din xadimləri də bu məsələdə həssas olmalı və daha diqqətli fəaliyyət göstərməlidirlər: "Belə olan halda biz daha güclü olacağıq".

## Bəhruz Quliyev: "Prezidentin müəyyən etdiyi siyasi kurs Azərbaycanı davamlı qələbələrə aparacaq"



"Bu gün Azərbaycanın güclü dövlət olaraq beynəlxalq aləmdə tanınması Ermənistanın təlaşına və xoflanmasına səbəb olub". SİA xəbər verir ki, bu fikirləri "Səs" qəzetinin Baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev ölkəmizin regionda və dünyada tutduğu mövqeyini və son 15 ildə əldə edilmiş nailiyyətlərini, eləcə də xalq-iqtidar birliyinin əhəmiyyətli məqamlarını şərh edərkən deyib. Bəhruz Quliyev qeyd edib ki, aprelin 11-də keçirilmiş prezident seçkilərinin nəticəsi də özündə bu faktoru ehtiva etməkdədir: "Əbəs deyil ki, Prezident İlham Əliyev andiçmə mərasimində məhz sarsılmaz xalq-iqtidar birliyinin nəticəsi olaraq, Azərbaycanın bütün sahələrdə inkişaf etməsi amilinə toxunub. "Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss etmişəm və hiss edirəm", - deyə vurğulayan ölkə başçımız göstərilən yüksək etimada görə xalqına təşəkkür edib və vurğulayıb ki, bu dəstək ona güc verir. Əlbəttə, həmin güc özünü inkişafımızın bütün sahələrində əks etdirməkdədir".

Ekspert qeyd edib ki, Prezident İlham Əliyevin müdrik və qətiyyətli siyasəti nəticəsində Azərbaycan nəhəng layihələrə imza atır, ordu quruculuğu tam sürətlə davam etdirilir və belə bir məqamda qonşu dövlət olaraq, Azərbaycana qarşı işğalçılıq siyasəti yürüdən Ermənistan bütün bunlardan ciddi təlaş keçirir, xoflanır: "Baxın, artıq günlərdir ki, Ermənistanı kütləvi xalq etirazları bürüyüb, vətəndaş itaətsizliyi dalğası davam edir. Bu, bilavasitə onu göstərir ki, əhəmiyyətli sosial-iqtisadi layihələrdən təcrid olunmuş Ermənistan rəhbərliyi artıq idarəolunmaz vəziyyətə düşüb və əli qana bulaşmış Serj Sarkisyan rejimi tənəzzül dövrünü yaşamaqdadır. İşğalçı dövlətin tam astanasında dayanmış inqilab faktoru bu ölkənin rəhbərliyini qorxuya salıb. Təkcə, elə də uzaq məsafədə yerləşməyən Ermənistandakı vəziyyətlə Azərbaycanı müqayisə edərsək, ortadakı nəhəng fərqi görmüş olarıq. Bu gün Azərbaycanda sabitlik və inkişaf tandemi ən möhkəm təməllərə söykənib və xalqın öz lideri ətrafında sıx birləşməsi ölkəmizin daha da qüdrətlənməsinə, güclənməsinə, çiçəklənməsinə əhəmiyyətli dərəcədə stimul verir. Əlbəttə, bunu beynəlxalq aləm də görür və alqışlayır. Ölkə başçımız çıxışı zamanı qeyd edib ki, Azərbaycan dünyada çox müsbət reputasiyaya malik olan ölkədir. Bəli, Cənab İlham Əliyevin də vurğuladığı kimi, bu müsbət tendensiyalar bizim dünyadakı mövqelərimizi möhkəmləndirir. Ermənistan isə dövlət başçımızın dediyi kimi, dalan ölkəyə çevrilib. Belə olan halda yuxarıda vurğuladığım fərq tam şəkildə özünü nümayiş etdirməkdədir və ona görə də Azərbaycanın son 15 ildə əldə etdiyi nailiyyətlər dövlətçilik maraqlarımızın qorunmasında, inkişaf etdirilməsində öz xüsusi rolunu oynayaraq, istər bizə qarşı işğalçılıq siyasəti aparan Ermənistan rəhbərliyini, istərsə də bəzi qərəzli qurumları əndişələndirməkdədir".

Bəhruz Quliyev sonda əminliklə vurğulayıb ki, dövlət rəhbərimiz Cənab İlham Əliyevin müəyyən etdiyi siyasi kurs Azərbaycanı daha uğurlu və mütərəqqi inkişafa, davamlı qələbələrə və zəfərlərə doğru aparacaq".

## Səlim Müslümov: "İlkin informasiyaya görə, 8800 şəxs Prezidentin fərmanından yararlanacaq"



"Prezident İlham Əliyev Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında fərmanı dövlət başçısının bu sahədə getdikcə gücləndirilib məqsədyönlü tədbirlərin növbəti davamıdır". SİA-nın xəbərinə görə, bunu əmək və əhalinin sosial müdafiəsi naziri səlahiyyətlərini icra edən Səlim Müslümov keçirdiyi mətbuat konfransında deyib. O bildirib ki, Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan, ölən və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilən hərbi qulluqçuların ailə üzvlərinin siyahısı üç ay müddətində Maliyyə və Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinə təqdim ediləcək". Onun sözlərinə görə, birdəfəlik ödəmələr həmin ümumi siyahıdakı hərbi qulluqçuların vərəsələrinə onların müraciəti və notariat qaydasında təsdiqlənmiş sənədləri təqdim etmələri əsasında ödəniləcək: "İlkin informasiyaya görə, 8800 şəxs bu fərmanın icrası altına düşür. Bu kateqoriyadan olan şəxslərə, təxminən, 95-100 milyon manat vəsait tələb olunacaq". Qeyd edək ki, 1997-ci il avqustun 2-dək Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan, ölən və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilən hərbi qulluqçuların vərəsələrinə 11 min manat məbləğində birdəfəlik ödəmə veriləcək.

## Hikmət Babaoğlu: "Ermənistandakı iğtişaşlar hərbi xunta rejiminə qarşı etirazdır"



Ermənistanda baş verən iğtişaşlar Ermənistan vətəndaşlarının uzun illərdir hərbi xunta rejiminin həyata keçirdiyi təcrid siyasətinə qarşı etirazdır. Bu ölkədə həyat səviyyəsi çox aşağıdır, işsizlik və yoxsulluq səviyyəsi həddindən artıqdır. Bunu AZƏRTAC-a açıqlamasında "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Babaoğlu bildirib.

Hikmət Babaoğlu qeyd edib ki, miqrasiya və demoqrafik problemlər, əhalinin sayının azalması ermənilərin genefondunu təhdid edən həddə çatıb. Ona görə də ermənilər növbəti mərhələni də qatil Sarkisyan rejiminin zülmü altında keçirmək istəmir. Əgər ənənəvi olaraq Ermənistandakı mövcud regionçuluq problemləri də nəzərə alınsa, o zaman demək olar ki, Yerevan erməniləri "Qarabağ klanı" kimi tanınan və legitimliyi əsla qəbul edilməyən bu quldur dəstəsindən birdəfəlik qurtulmaq istəyirlər.

Milli Məclisin deputatı qeyd edib ki, yeni seçilən prezident yerevanlı olsa da, əlində real hakimiyyət rıçaqları yoxdur və bundan sonra da Ermənistanı de-fakto baş nazir Serj Sarkisyan idarə edəcək. Bu isə o deməkdir ki, problemin kökləri daha da dərindir və siyasi qarşıdurma və ziddiyyətlər bundan sonra da artmaqda davam edəcək. Hətta prezident Armen Sarkisyanın tərəfdarları olan siyasi mərkəzlər də baş nazir Serj Sarkisyana qarşı bu etirazı gizli şəkildə dəstəkləyirlər. Aydın məsələdir ki, Ermənistanın regionda səfil və dilənçi dövlət halına düşməsinin əsas səbəbi onun işğalçılıq siyasəti və Azərbaycanın bu işğalçı ölkəni bütün regional və qlobal layihələrdən kənarda qoymasıdır. Sıravi ermənilər bunu yaxşı başa düşürlər və işğal faktı ortadan qalxmayanadək də vəziyyətin dəyişməyəcəyini bilirlər. Ona görə də etirazçılar özlərində cəsarət tapıb Ermənistan hakimiyyətini nə qədər tez işğalçılıq siyasətindən əl çəkməyə çağırsalar, vəziyyət bir o qədər də onların xeyrinə olar. Ancaq erməni cəmiyyəti mövcud hakimiyyətin təkcə idarəetmə işğalı altında deyil, həm də ideoloji işğalı altındadır. Ona görə də ermənilər işğalçılıq siyasətinə son qoymaqla bağlı çağırışlar etməyə hələ o qədər də hazır deyillər. Seçkilər zamanı bəzi siyasi qüvvələrin bu məsələni açıq şəkildə gündəmə gətirməyə cəsarət etmələri belə deməyə əsas verir ki, nə vaxtsa etirazçılar bu addımı da ata bilərlər. Əsas məsələ isə odur ki, ermənilər artıq başa düşürlər ki, ümid etdikləri kimi, Azərbaycanın torpaqlarını uzun müddət işğal altında saxlaya bilməyəcəklər.

## Muxtar respublikada kənd təsərrüfatı məhsulları istehsalı 3 faizdən çox artıb



Muxtar respublikada 2018-ci ilin yanvar-mart aylarında bir il öncəyə nisbətən 3 faiz çox, yəni 27 milyon 510 min 200 manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunub. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, bu ilin yanvar-mart aylarında muxtar respublikada diri çəkidə 6 min 111 ton ət, 12 min 551 ton süd istehsal olunub. Bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,9 və 2,5 faiz çoxdur.

Muxtar respublikada mal-qaranın cins tərkibinin yaxşılaşdırılması üçün süni mayalanma tədbirlərinin həyata keçirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 fevral tarixli "Naxçıvan Muxtar Respublikasında heyvandarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamına uyğun olaraq Süni Mayalanma Mərkəzinin yaradılmasına başlanılıb. Bu ilin ilk rübündə heyvandarlıq təsərrüfatlarında 2047 baş inək, düyə və camış süni yolla mayalandırılıb, əvvəlki dövrdə mayalandırılmış inək, düyə və camışlardan 3056 baş sağlam bala alınıb. 2018-ci il 1 aprel tarixinə muxtar respublikanın bütün təsərrüfat kateqoriyalarında qaramalın sayı 119 min 378 baş, qoyun və keçilərin sayı 741 min 852 baş olub ki, bu da ötən ilin eyni dövründəki göstəriciləri 1,6 və 1,9 faiz üstələyib. Etibarlı ərzaq təminatı sisteminin yaradılması ixrac potensialını artırıb, 2018-ci ilin ilk rübündə muxtar respublikadan 12 milyon 86 min 600 ABŞ dolları dəyərində kənd təsərrüfatı, o cümlədən meyvə və tərəvəz məhsulları ixrac olunub.

# Şair Ramaldanov: “Prezidentin bu addımı minlərlə ailələrin sevincinə səbəb oldu”



“Azərbaycan Prezidenti İlham Əliyev andiçmədən sonra hümanist addım ataraq ilk növbədə “Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında” Fərman imzaladı. Bu çox sevindirici haldır. Sevindirici haldır ona görə ki, cənab Prezident bir daha öz Fərmanı ilə göstərdi ki, Azərbaycan dövləti, Prezidenti heç nəyi unutmur və heç kim unudulmur”. Bunu SİA-ya açıqlamasında hərbi ekspert, ehtiyatda olan polkovnik Şair Ramaldanov deyib.

Ehtiyatda olan polkovnikin sözlərinə görə, ümumiyyətlə birinci Qarabağ müharibəsində döyüşlər zamanı həlak olanlar, itkin düşənlər də olurdu: “Amma Azərbaycana Ümummilli Lider Heydər Əliyevin qayıdışından sonra bu məsələlərə diqqət yetirilməyə başlanıldı. 1997-ci ildə şəhid ailələrinin, itkin düşənlərin həyatının sığortalanması və pul ayrılması haqqında fərman çıxdı. 1997-ci ilə kimi olan o ailələr həmin fərmanda öz əksini tapmamışdılar. Çünki adətən fərman qüvvəyə minəndən sonra o qanunun tələblərini yerinə yetirmir.

Cənab İlham Əliyevin bu addımı minlərlə ailələrin sevincinə səbəb olur. Fərmana əsasən 1997-ci il avqustun 2-dək Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların vərəsələrinə bu Fərmanla müəyyənləşdirilmiş qaydada 11 min manat məbləğində birdəfəlik ödəmə veriləcək. Azərbaycan Prezidenti hətta öz fərmanında bu məsələnin demək olar ki, çox sadə şəkildə həyata keçirilməsinə tapşırıq verib. Birdəfəlik ödəmə həqiqi hərbi xidmətdə (toplanışda) olduğu zaman həlak olması, ölməsi və ya xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilməsi ilə əlaqədar əvvəllər sığorta ödənişi verilməmiş, o cümlədən barəsində sığorta ödənişinin verilməsinə dair qanuni qüvvəyə minmiş məhkəmə aktı olmayan hərbi qulluqçuların vərəsələrinə verilir. Bildiyiniz kimi, bizim əsas şəhidlərimiz, itkin düşənlərimiz birinci Qarabağ müharibəsi döyüşləri zamanı olub. Bir tərəfdən təəssüflər olsun ki, bizim şəhid ailələrimizin sayı çoxdur. 11 min manat məbləğində birdəfəlik ödəmə bu gün Azərbaycanda şəhid ailəsinin öz problemlərinin həllində yardımçı olacaq. Ümummilli Lider Heydər Əliyevin daxili siyasəti və xalqa olan qayğısını bu gün cənab Prezident İlham Əliyev bir daha bu Fərmanla göstərdi ki, Ulu Öndər tərəfindən qoyulan yol uğurla davam olunur. Bununla bağlı bütün izahlar artıq çox geniş şəkildə mətbuatda dərc olunub”.

# Təbrik edirəm!



Ulu Öndər Heydər oğludur İlham,
O, xalqın qəlbində qazanıb inam.
El-oba səs verir bu gün İlhama,
O, rəhbər seçilir Azərbaycana.

Dünyaya səs salan dövlətimizlə,
Fəxr edirik bu gün şöhrətimizlə.
O, yetirib bizi bu ağ günlərə,
Gülüstana dönüb hər dağ, hər dərə.

Bahar da dost kimi sıxır əlini,
Dillərdə səslənən nəğmələr kimi.
Bakımda yüksəlir uca binalar,
Firəvan yaşayır burda insanlar.

Biz YAP-ın yoluyla addımlayırıq,
Zamanın beynidir, gözüdür İlham.
Xalqına səadət, xoşbəxtlik verən,
Müdrik partiyanın özüdür İlham!

***Mürsəlova Ofelya Mürsəl qızı,***
***ADPU-nun pedaqogika kafedrasının baş müəllimi***

# Cəlil Xəlilov: “Azərbaycan Prezidenti bir daha təsdiq etdi ki, Vətən naminə canlarından keçən insanlar heç vaxt unudulmayacaq”

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun problemləri, onun qayğıları, onun rifahı dayanır” şüarını müntəzəm olaraq gördüyü işlərlə gerçəkləşdirir. Dövlətimizin başçısı hər bir vətəndaşın, imtiyazlı təbəqənin, Vətən və xalq qarşısında xidmətləri olan şəxslərin, o cümlədən ölkəmizin ərazi bütövlüyü uğrunda həlak olmuş və itkin düşmüş hərbi qulluqçuların ailə üzvlərinin sosial məsələlərinin həllini hər zaman prioritet vəzifə hesab edir.***



Dövlətimizin başçısının bu gün imzaladığı Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında Fərman bu istiqamətdə növbəti mühüm addımdır.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov deyib.

Cəlil Xəlilov qeyd edib ki, Azərbaycanın iqtisadi qüdrətinin artması həm ölkənin müdafiə potensialının gücləndirilməsi, həm də hərbi qulluqçuların sosial müdafiəsinin etibarlı təmin edilməsi üçün şərait yaradıb. Hərbi sahədə həyata keçirilən islahatlar, müasir hərbi infrastruktur, eləcə də hərbi kadr potensialının yüksəldilməsi sahəsində görülən işlər göz önündədir. Bunların əyani sübutu isə 2016-cı ilin aprel döyüşlərində ordumuzun parlaq zəfəridir. Regionun ən güclü ordusu olan Azərbaycan ordusu peşəkar kadrlara və müasir silahlara malik olması ilə seçilir. Əminliklə deyə bilərik ki, respublikamızda ordu quruculuğu yüksələn xətlə həyata keçirilir. Artıq bir sıra dövlətlər Azərbaycanın ordu quruculuğu sahəsindəki təcrübəsindən silahlı qüvvələrinin formalaşdırılmasında istifadə edirlər. Digər tərəfdən, hərbçilərin xidmət, mənzil-məişət şəraitinin yaxşılaşdırılması, onların sosial müdafiəsinin gücləndirilməsi və başqa istiqamətlər üzrə məqsədyönlü tədbirlər həyata keçirilir. Ümumiyyətlə, hərbi sahə ilə bağlı məsələlərin kompleks həlli Azərbaycanda müntəzəm surətdə uğurla aparılan dövlət siyasətidir. Bu istiqamətdə həm qanunvericilik, həm icra orqanları tərəfindən mühüm işlər görülür.

Cəlil Xəlilov diqqətə çatdırıb ki, Azərbaycan dövlətinin hər zaman öz vətəndaşlarına sahib çıxması, xüsusən ölkənin ərazi bütövlüyü uğrunda həlak olmuş və itkin düşmüş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirməsi bu fəaliyyətin bariz və qürurdoğuran nəticəsidir. Azərbaycan Prezidentinin Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında Fərmanı həmin sahədə həyata keçiriləcək tədbirlərin uğurlu davamıdır. Təsadüfi deyil ki, bu, Prezident İlham Əliyevin yeni dönəmdə səlahiyyətlərinin icrasına başladıqdan sonra imzaladığı ilk qanunvericilik aktıdır. Prezident İlham Əliyev bununla Vətənə canı bahasına xidmət etmiş və bu gün də layiqincə xidmət edən insanlara, onların ailə üzvlərinə nə qədər önəm verdiyini bir daha sübut etdi. Fərmana görə, 1997-ci il avqustun 2-dək Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların vərəsələrinə 11 min manat ödəmə veriləcək. Bu Fərman Ali Baş Komandanın Azərbaycanın ərazi bütövlüyünün qorunması uğrunda canlarını qurban vermiş hərbçilərimizin vərəsələrinə diqqət və qayğısının bariz nümunəsi olmaqla yanaşı, həmçinin sabah torpaqlarımızın düşmən işğalından azad olunması yolunda fədakarlıq göstərəcək əsgər və zabitlərimizə ünvanlanmış aydın və birmənalı mesajdır. Vətən, xalq, dövlət öz müdafiəçilərini daim qiymətləndirir, onların xidmətlərini heç vaxt yaddan çıxarmır. Prezident İlham Əliyev bu Fərmanla bir daha təsdiq etdi ki, Azərbaycan vətəndaşlarının qayğı və problemləri dövlətin daim nəzarətindədir. Dövlətimizin başçısının bu məqsədlə həyata keçirdiyi ardıcıl sosial siyasət gələcəkdə daha da gücləndiriləcək.

# Hərbi ekspert: “Prezidentin Fərmanı vətənpərvərlik ruhuna böyük təsir edəcək”



“Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı əhəmiyyətliyi ilə seçilir”. Bunu SİA-ya Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə İctimai Birliyinin (TOHGMİB) sədri, hərbi ekspert Emin Həsənli deyib. Onun sözlərinə görə, indiyədək şəhid ailələrinin mənzillə təminatı, onlara təqaüdlərin verilməsi, Qarabağ əlillərinin avtomobillə, mənzillə, təqaüdlə təmin edilməsi,Vətən uğrunda xidmət etmiş insanlara xüsusi qayğı mövcuddur: “Prezident Vətən uğrunda xidmət etmiş insanların övladlarını təhsil haqqından azad edib və onlara Prezidenti təqaüdü verdi. Təbii ki, bunun əhəmiyyəti həddindən artıq çox böyükdür. Bu, həm vətənpərvərliyə təsir edir, həm də dövlət qarşısında xidməti olmuş insanların yüksək qiymətləndirilməsi ilə nəticələnir. Prezidentin sözügedən bu Fərmanı həmin insanların problemlərini birdəfəlik həll edəcək. Bu indiyədək olan Sərəncam və Fərmanların bir davamıdır. Hesab edirəm ki, bu, ölkədə vətənpərvərlik ruhuna çox böyük təsir edəcək və yaxşı stimul olacaq”.

E.Həsənli əlavə edib ki, Silahlı Qüvvələrin Ali Baş Komandanı Prezident İlham Əliyev Silahlı Qüvvələrimizin hərtərəfli inkişafı üçün kompleks tədbirlər görür: “Azərbaycanda ordu quruculuğu Ümummilli Lider Heydər Əliyevin qoyduğu yoldur, hərbi elmin əsaslarına uyğun ordu yaradılıb. Bu gün Silahlı Qüvvələrimizin arsenalında ən müasir texnika, hərbi aviasiya, hava hücumundan müdafiə sistemləri, quru qoşunlarımız, artilleriyamız var. Azərbaycan ordusu Cənubi Qafqazın ən güclü ordusudur. Ordumuzun silahlanması günün tələblərinə cavab verir. Bu, digər ölkələr üçün nümunələr olmalıdır”.

# YAP Nəsimi rayon təşkilatı tərəfindən görkəmli oftalmoloq-alim Zərifə xanım Əliyevanın xatirəsi anılıb





Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatı tərəfindən, ənənəvi olaraq, görkəmli oftalmoloq-alim Zərifə xanım Əliyevanın xatirəsinə həsr olunmuş silsilə tədbirlər həyata keçirilir. Silsilə tədbirlər çərçivəsində YAP Nəsimi rayon təşkilatının idarə heyətinin üzvü Zərifə Quliyeva və bir qrup partiya fəalları sağlamlıq imkanları məhdud uşaqlar üçün 5 nömrəli Respublika Xüsusi İnternat Məktəbini ziyarət ediblər.

Görüşdə çıxış edən YAP Nəsimi rayon təşkilatının sədri, millət vəkili Məlahət İbrahimqızı görkəmli oftalmoloq-alim Zərifə xanım Əliyevanın zəngin və mənalı ömür yoluna nəzər salıb: "Elmi fəaliyyəti ilə Azərbaycan tibb elminə əvəzsiz töhfə verən Zərifə xanım Əliyeva çox zəngin həyat yolu keçmişdir. Zərifə xanım Əliyevanın həyat fəlsəfəsi, mənəvi dünyası, oftalmologiya elminin inkişafındakı xidmətləri o qədər zəngin və çoxcəhətlidir ki, Onun fəaliyyətinə nəzər salarkən, bu dahi insanın genişmiqyaslı şəxsiyyət olması qənaətinə gəlmək olur. Zərifə xanımın fitri istedada malik novator alim, pak və nadir bir insan kimi yaşadığı dərin mənalı ömrü, keçdiyi şərəfli həyat yolu hər bir Azərbaycan vətəndaşı, hər bir alim və həkim üçün həyat və mənəviyyat dərsi, kamillik və müdriklik məktəbidir".

Rayon təşkilatının sədri Zərifə xanım Əliyevanın zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifəsi olduğunu qeyd edib. Zərifə xanımın işıqlı obrazı yüksək vətənpərvərlik və humanizm rəmzi kimi həmişə yaddaşlarımızda qalacağını, Onun parlaq xatirəsi daim anılacaq, qədirbilən xalqımızın qəlbində əbədi yaşayacağını vurğulayıb.

**NƏZAKƏT**

# Beynəlxalq Atom Enerjisi Agentliyinin baş direktoru Yukio Amano Milli Onkologiya Mərkəzində olub

***Dünən Beynəlxalq Atom Enerjisi Agentliyinin (BAEA) baş direktoru Yukio Amano Azərbaycana səfəri çərçivəsində Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Milli Onkologiya Mərkəzində (MOM) olmuşdur. Görüşdə Azərbaycanın Avstriyadakı Fövqəladə və Səlahiyyətli səfiri Qalib İsrafilov, BAEA-nın, həmçinin, ölkəmizin Fövqəladə Hallar Nazirliyinin məsul şəxsləri iştirak ediblər.***





Qonaqları salamlayan Azərbaycan Milli Onkologiya Mərkəzinin baş direktoru akademik Cəmil Əliyev cənab Y.Amanoya MOM-u ziyarətinə və elmi-texniki əməkdaşlıq sahəsində intensiv əməkdaşlığı dəstəklədiyinə görə, öz dərin təşəkkürünü bildirmişdir. Akademik C.Əliyev Milli Onkologiya Mərkəzində reallaşdıran əməliyyatlardan, elmi-tədqiqat işlərin xüsusiyyətlərindən söz açmış, burada baş vermiş qlobal dəyişikliklərdən, mütəxəssislərin peşəkar səviyyəsindən, ultramüasir avadanlıqların iş prinsiplərindən danışmışdır. Bu gün Milli Onkologiya Mərkəzinin möhtəşəm bir layihə kimi yüksək səviyyəyə gəlib çatmasında, səmərəli fəaliyyətində danılmaz xidmətləri olan dövlətimizin başçısı, Möhtərəm Cənab İlham Əliyevin daimi qayğısı və diqqətini xüsusi vurğulamışdır. Çıxışının sonunda akademik C.Əliyev daimi dəstəyə və əməkdaşlığa görə, cənab Yukio Amanoya, eləcə də, Beynəlxalq Atom Enerjisi Agentliyinə bir daha öz minnətdarlığını bildirmişdir.

Beynəlxalq Atom Enerjisi Agentliyinin (BAEA) baş direktoru Yukio Amano öz çıxışında səmimi qarşılanma üçün akademik Cəmil Əliyevə təşəkkürünü bildirmiş və Milli Onkologiya Mərkəzinin yüksək səviyyəsinə və müasir elmi-təcrübi göstəricilərinə təbrik etmişdir. Qonaq əhaliyə onkoloji xəstəliklər zamanı yardımın strukturu, nüvə təhlükəsizliyi məsələləri, onkoloji, tibbi və nüvə fizikası sahəsində ixtisaslaşma ilə maraqlanmışdır. BAEA-nın baş direktoru qeyd etmişdir ki, Milli Onkologiya Mərkəzi kimi yüksək səviyyədə təchiz edilmiş elmi strukturlara, hətta Avropa miqyasında da nadir hallarda təsadüf edilir və MOM qonşu dövlətlərin onkoloji xəstələrinə belə yüksək keyfiyyətli yardım göstərmək iqtidarındadır. Cənab Yukio Amano Milli Onkologiya Mərkəzi ilə gələcəkdə də sıx şəkildə əməkdaşlıq etmək niyyətində olduğunu bildirmişdir.

Qonaqlar mərkəzin Radioterapiya şöbəsinin işi ilə tanış olmuş, sonra Nüvə Təbabəti Mərkəzinə gedərək, PET-KT bölümünün və radioaktiv tibbi məhsullar hazırlayan Tsiklotron reaktorunun işi ilə tanış olmuşlar.

Görüşün sonunda cənab Yukio Amano Milli Onkologiya Mərkəzinin Muzeyində olmuş və Fəxri qonaqlar kitabına ürək sözlərini yazmışdır.

**ZÜMRÜD**

# Suraxanı rayonu cari ilin birinci rübünü uğurla başa vurub

***Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin Nazirlər Kabinetinin 2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı nitqindən irəli gələn vəzifələr Suraxanı rayon icra hakimiyyəti başçısı yanında şuranın geniş iclasında ətraflı müzakirə olunmuş və qarşıda duran vəzifələr müəyyənləşdirilmişdir.***

İclasda məruzə ilə çıxış edən rayon icra hakimiyyətinin başçısı İlqar Abbasov vurğulayıb ki, ölkə əhalisinin yüksək fəallığı şəraitində, mütəşəkkil, şəffaf şəkildə keçirilən, insanların yüksək əhval-ruhiyyə ilə iştirak etdikləri 11 aprel prezident seçkiləri Möhtərəm Prezidentimiz Cənab İlham Əliyevin möhtəşəm və inamlı qələbəsi ilə başa çatdı və bir daha təsdiq etdi ki, Cənab İlham Əliyev ölkəmizə rəhbərlik etdiyi on beş il ərzində xalqın böyük hörmət və rəğbətini qazanmışdır. Bu parlaq qələbə münasibətilə, o, Cənab Prezidenti rayon ictimaiyyəti adından təbrik edib. Bildirib ki, xalqımız növbəti 7 ildə də Möhtərəm Prezidentimiz Cənab İlham Əliyevlə irəliləyəcəyindən qürur duyur.

Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin Nazirlər Kabinetinin iclasındakı çıxışında səsləndirdiyi başlıca müddəalar barədə ətraflı məlumat verən İ.Abbasov bildirib ki, son 15 il ərzində dövlət başçısı tərəfindən sistemli şəkildə həyata keçirilən məqsədyönlü və düşünülmüş islahatlar, ölkəmizin bütün regionlarının, o cümlədən, Suraxanı rayonunun hərtərəfli sosial-iqtisadi inkişafını təmin etmişdir. Cari ilin birinci rübü ərzində Suraxanı rayonunda sənaye məhsulunun istehsalı 77,2 milyon manat, tikinti-quraşdırma işləri 8,4 milyon manat, nəqliyyat xidmətləri 3,4 milyon manat, əsas kapitala yönəldilən investisiyalar 22,3 milyon manat, kənd təsərrüfatı 1,3 milyon manat, pərakəndə ticarət dövriyyəsi 218,3 milyon manat olmuş, orta aylıq əmək haqqı 576 manat təşkil etmiş, əhaliyə 54,8 milyon manat məbləğində pullu xidmətlər göstərilmiş və 1154 yeni daimi iş yeri açılmışdır.






Rayon icra başçısı hesabat dövrü ərzində rayonda küçələrə və məhəllədaxili ərazilərə, ümumilikdə, 16,3 min kv.m. asfalt örtüyü çəkildiyini, Zığ-Hövsan avtomobil yolunun yenidən qurulması işlərinin davam etdirildiyini diqqətə çatdırıb.

İ.Abbasov əhalinin sosial məişət şəraitinin yaxşılaşdırılması istiqamətində rayonda müəyyən işlərin aparıldığını vurğulayıb: "Yararsız və ya qəzalı binalarda yaşayan sakinlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, şəhərin ümumi görünüşünə xələl gətirən yaşayış binalarının və digər obyektlərin sökülərək yeni yaşayış binalarının inşa edilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin göstərişinə və Nazirlər Kabinetinin müvafiq Qərarına uyğun olaraq, istismara yararsız iki mərtəbəli yaşayış binalarının yerində 12 və 14 mərtəbəli, iki girişli yaşayış binasının tikintisinə başlanılmış və işlər davam etdirilir". Suraxanı rayon gənclər və idman idarəsi böyüməkdə olan gənc nəslin hərbi vətənpərvərlik ruhunda tərbiyə etmək, məktəb şagirdlərinin hərbi-idman və turizm oyunlarına cəlb etmək, onları ordu sıralarında xidmətə hazırlamaq məqsədi ilə şagirdlər arasında "Şahin" və "Sərhədçi" hərbi-idman oyunları üzrə yarışların keçirilib. Milli qəhrəmanlarımızın tanıdılması, hərbi-vətənpərvərlik hisslərinin aşılanması, hərbi hissədə əsgərlərlə görüşün təşkili istiqamətində, ümumilikdə, 31 tədbir təşkil olunub.

Ötən dövr ərzində rayonda vətəndaşların müraciətlərinə, onların problemlərinin həllinə diqqətin artırıldığını bildirən rayon icra başçısı qeyd edib ki, 510 nəfərin iştirakı ilə 10 səyyar görüş-qəbul keçirilmiş və onların problemləri ilə maraqlanmışdır. Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən, əhalinin məşğulluq səviyyəsinin artırılması məqsədilə işsiz vətəndaşların ödənişli ictimai faydalı işlərə cəlb edilməsi proqramı davam etdirilmiş, 2018-ci ildə rayon üçün həmin proqrama əsasən, 1362 yeni iş yeri açılmış, rayonun ərazisində abadlıq, yaşıllaşdırma və təmizlik işlərinin görülməsi, çoxmənzilli yaşayış binalarının əsaslı təmiri işlərinə rayon MKTB-yə 31-i məcburi köçkün olmaqla, cəmi 714 nəfər işaxtaran şəxs, digər qurumlarda isə 486 nəfər vətəndaş işə qəbul edilmiş və hal-hazırda onlar işlərini davam etdirirlər.

Şuranın geniş iclasında çıxış edən Milli Məclisin deputatı Sevinc Fətəliyeva, YAP Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov və digər çıxış edənlər uğurlara və problemlərə diqqət yetirmiş, qarşıda duran vəzifələrlə bağlı fikir və təkliflərini söyləyiblər.

Sonda rayonun ictimai həyatında və digər sahələrdə fəal iştirakına görə, bir qrup şəxs rayon icra hakimiyyəti başçısının Fəxri Fərmanı ilə təltif edilib.

**ZÜMRÜD**

# Vüqar Rəhimzadə: “Xalqımız son 15 ildə görülən işlərə öz yüksək qiymətini verdi”

***“11 aprel prezident seçkiləri Azərbaycanda demokratiyanın təntənəsi olmaqla yanaşı, xalqımızın Ulu Öndər Heydər Əliyevin siyasətinə inamını və etimadını bir daha nümayiş etdirdi. Xalqımız son 15 ildə görülən işlərə öz yüksək qiymətini verdi. Bu müddətdə Azərbaycanın ayrı-ayrı sahələrdə əldə etdiyi uğurların miqyasına diqqət yetirdikdə harada yaşamasından, siyasi əqidəsindən, milli mənsubiyyətindən asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşı bundan yalnız və yalnız qürur duya bilər. Ərazi baxımından kiçik olan bir dövlətin bu gün möhtəşəm uğurları ilə dünyanın diqqətində olması, ən əsası, inkişafın Azərbaycan modelindən bəhs edilməsi düşünülmüş və məqsədyönlü siyasətin nəticəsidir.***

Dövlətimizin başçısı Cənab İlham Əliyev andiçmə mərasimində bir daha diqqəti bu reallığa yönəltmişdir: “Mən 2003-cü ildə, prezident seçkiləri ərəfəsində xalqa müraciət edərək demişdim ki, əgər Mənə xalq etimad göstərərsə, Mən Ulu Öndər Heydər Əliyev siyasətinə sadiq qalacağam, bu siyasəti davam etdirəcəyəm. Mən fəxr edirəm ki, xalq Mənə inandı, Məni dəstəklədi və Mən də, öz növbəmdə, sözlərimə əməl etdim. Son 15 il ərzində Azərbaycanda hərtərəfli inkişaf təmin edilmişdir. Bunun əsas şərti ondan ibarətdir ki, biz Ulu Öndərin yolu ilə gedirik. Onun qoyduğu yol yeganə düzgün yoldur və Azərbaycanın müstəqillik tarixi bunun əyani sübutudur.” 11 aprel prezident seçkilərində xalqımızın fəal iştirakı, Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə dəstəyi görülən işlərə verilən yüksək qiymət, qarşıdakı illər üçün müəyyənləşdirilən hədəflərə dəstək kimi də dəyərləndirilir.” Bu fikirləri KİV-ə açıqlamasında YAP Siyasi Şurasının üzvü, “İki sahil” qəzetinin Baş redaktoru Vüqar Rəhimzadə bildirib.

Vüqar Rəhimzadə qeyd edib ki, andiçmə mərasimində seçkilərdə göstərilən etimada görə Azərbaycan xalqına dərin təşəkkürünü bildirən Cənab İlham Əliyev bu dəstəyin ona güc verdiyini, bu dəstəyə arxalandığını bildirərək, əminliklə qeyd etmişdir ki, bundan sonra da xalqa və Vətənə ləyaqətlə xidmət edəcək: “Dövlətimizin başçısının qeyd etdiyi kimi, prezident seçkiləri Azərbaycan xalqının iradəsini əks etdirib. Azərbaycan xalqı görülən işlərə yüksək qiymət verib. Seçkilər ədalətli, şəffaf şəkildə keçirilib. Xalq-iqtidar birliyinin möhkəmliyi, sarsılmazlığı fonunda Azərbaycan yeni-yeni hədəflərə nail olmaqla inkişaf etmiş ölkələr sırasında addımlamaq istəyinin reallığa çevrilməsinə yol açır.”

YAP Siyasi Şurasının üzvü vurğulayıb ki, son 15 ildə sabitliyin və təhlükəsizliyin təminatı əsas məsələ kimi öndə olub: “Sabitliyi hər bir inkişafın əsası kimi dəyərləndirən Cənab İlham Əliyev daim diqqəti dünyada cərəyan edən proseslərə yönəldərək, müqayisəli təhlil əsasında Azərbaycandakı mövcud sabitliyi möhkəm təmələ əsaslanan siyasətin nəticəsi kimi qeyd edir. Son 15 ildə dünyanın müxtəlif bölgələrində, Avropada çox təhlükəli proseslər baş verib-qanlı toqquşmalar, müharibələr, vətəndaş müharibələri, dövlət çevrilişləri.



Bu fonda Azərbaycanın sabitləşdirici faktor kimi möhkəmlənən mövqeyi daha aydın görünür və dəstəklənir. Sabitlik olmadan hansısa inkişafdan söhbət gedə bilməz. Bu günümüzü müstəqilliyimizin ilk illəri ilə müqayisə etdikdə, sabitlik faktorunun nə kimi rola malik olduğu daha aydın görünür. Məhz bu sabitliyin nəticəsidir ki, bu gün ölkə iqtisadiyyatına yatırılan investisiyaların həcmi 231 milyard dollardan artıqdır. Azərbaycanın bu gününə və gələcəyinə inamdan irəli gələn bu addım, eyni zamanda, həyata keçirilən siyasətə dəstəkdir. Andiçmə mərasimində dövlətimizin başçısı Cənab İlham Əliyev bildirmişdir: “Sabitlik pozulanda, xarici müdaxilə baş verir, ölkələr idarəolunmaz vəziyyətə düşür, qardaş qanı tökülür və ölkələrin gələcəyi böyük sual altına düşür. Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqıdır və bizim siyasətimizdir. Ona görə xalq-iqtidar birliyi bizim uğurlarımızın əsas şərtidir. Azərbaycan bu gün dünya miqyasında sabitlik məkanı, sabitlik adası kimi tanınır və bu, bizim böyük nailiyyətimizdir. Bu gün böyük inam hissi ilə qeyd edə bilərik ki, Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışının ilk çağlarında söylədiyi “Biz bu çətin günləri keçib gedəcəyik, müstəqil Azərbaycan Respublikası dünya birliyində öz layiqli yerini tutacaq. Hər bir Azərbaycan vətəndaşı özünün bu müstəqil dövlətə mənsub olduğunu böyük qürur hissi ilə bəyan edəcəkdir” fikirləri artıq reallıqdır.” Ümummilli Lider Heydər Əliyevin bu fikirlərinin davamı olaraq, Cənab İlham Əliyev bildirir ki, bugünkü Azərbaycan Ulu Öndərin görmək istədiyi Azərbaycandır. Azərbaycanın müstəqilliyi əbədidir, dönməzdir, ən əsası, Heydər Əliyev siyasəti bu əbədiliyin təminatçısıdır.

Vüqar Rəhimzadə əlavə edib ki, son 15 ildə demokratik təsisatların inkişafı istiqamətində atılan addımlar da təqdirəlayiqdir: “Dövlət siyasətinin əsasını təşkil edən insan hüquq və azadlıqlarının təminatı, azad mətbuatın inkişafı, siyasi partiyaların normal fəaliyyəti üçün yaradılan əlverişli şərait eyni zamanda, seçkilərin demokratik, beynəlxalq standartlara uyğun keçirilməsi istiqamətində atılan addımlar davamlılığı ilə diqqət çəkir. Konstitusiyamıza son 15 ildə iki dəfə əlavə və dəyişikliyin edilməsi məqsədilə ümumxalq səsverməsinin keçirilməsi, cəmiyyətin idarə olunmasında əsas rola malik olan qanunlarımızın təkmilləşdirilməsi insan amilinə verilən dəyərin təsdiqidir. Dövlətimizin başçısı Cənab İlham Əliyevin sərəncamlarına uyğun olaraq, jurnalistlər üçün artıq iki bina tikilib istifadəyə verilib, üçüncü binanın təməli qoyulub. Cənab İlham Əliyevin Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Konsepsiyasının təsdiqi, eyni zamanda, bu sənədə uyğun olaraq 2009-cu ildə Azərbaycan Respublikasının Prezidenti yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması azad mətbuatın inkişafına xidmət edən addımlar sırasındadır. Bu gün zamanın, dövrün tələblərinə uyğun təkmilləşmə, digər sahələr kimi, mətbuatda da öz əksini tapmaqdadır.”

Vüqar Rəhimzadənin sözlərinə görə, Azərbaycan 15 ildə özünün dövlətlər və xalqlar arasında körpü rolunu daha da möhkəmləndirib: “Multikulturalizm İli”, “İslam Həmrəyliyi İli” çərçivəsində görülən işlər, Azərbaycandan dünyaya ünvanlanan mesajlar bir daha bu həqiqəti ortaya qoydu ki, Azərbaycan hər addımı, eyni zamanda, gerçəkləşdirdiyi layihələri ilə dövlətləri, xalqları daha da yaxınlaşdırır, birgə səylərin qarşıya qoyulan məqsədlərə nə kimi yol açdığını dünyaya çatdırır. Azərbaycanda keçirilən çoxsaylı mötəbər beynəlxalq tədbirlər, forumlar, konfranslar ölkəmizi dünyada tolerantlıq məkanı, dözümlülük, multikulturalizm mərkəzi kimi təqdim etmişdir. Dövlətimizin başçısı Cənab İlham Əliyev bütün bunlarla bağlı bildirir: “Bu, bizim həyat tərzimizdir, eyni zamanda, bizim siyasətimizdir. Artıq Azərbaycanın bu sahədəki təcrübəsi öyrənilir. Bu gün Azərbaycan dünya miqyasında bu istiqamətdə aparılan siyasətlə seçilən, fərqlənən ölkələrdən biridir.” Bu uğurlarımıza yol açan əsas amillərdən biri, təbii ki, iqtisadi inkişafdır. Son 15 ildə neft siyasətinin məntiqi davamı olaraq qeyri-neft sektorunun inkişafı istiqamətində atılan addımların uğurları bugünkü sosial-iqtisadi göstəricilərdən daha aydın görünür. Son on beş ildə bir milyon 500 min yeni iş yeri açılıb. İşsizliyin səviyyəsi 5 faizdir. Regional inkişaf proqramlarının uğurlu icrası, nəinki rəqəmlərdə, hətta insanların gündəlik həyatında da özünü göstərir. Neft gəlirlərinin idarə olunmasında şəffaflıq, ədalət prinsipinin öndə saxlanılması ölkənin maliyyə imkanlarının genişlənməsində və mühüm sosial-iqtisadi layihələrin həyata keçirilməsində özünü təsdiqləyir.

YAP Siyasi Şurasının üzvü vurğulayıb ki, son 15 ildə enerji sektorunda əldə olunan uğurların da miqyası genişdir: “Əsrin müqaviləsi”nin 23 illiyi ərəfəsində “Yeni əsrin müqaviləsi”nin imzalanması Azərbaycanın etibarlı tərəfdaş kimi mövqeyinin möhkəmlənməsindən xəbər verir. Cari ildə “Cənub Qaz Dəhlizi”nin əsas tərkib hissəsi olan TANAP layihəsinin icrasının başa çatması ilə Azərbaycana investisiya axını daha da sürətlənəcək. Bir sözlə, Azərbaycanın iştirakçısı və təşəbbüsçüsü olduğu hər bir layihənin uğurlu sonluqla başa çatması yeni layihənin gündəmə gətirilməsini şərtləndirir. Prezident İlham Əliyev andiçmə mərasimində bir daha, bu reallığı diqqətə çatdırmışdır ki, iqtisadi inkişaf templərinə son on beş ildə Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmamışdır. Bu dövrdə iqtisadiyyat 3,4 dəfə artıb. Əvvəlki illərdə bu artımın neft amili sayəsində olduğunu önə çəkən Möhtərəm Prezidentimiz İlham Əliyev bu əminliyi ifadə edir ki, hazırda qeyri-neft sektorunun inkişafı bu artımı təmin edir və gələcəkdə də təmin edəcəkdir. Həyata keçirilən siyasətin əsasında vətəndaş amilinin dayanması sosial müdafiənin gücləndirilməsi yönümündə atılan addımların miqyasından da aydın görünür. Diqqətəlayiq haldır ki, bu müddət ərzində, Azərbaycan özünü dünyaya sosial dövlət kimi təqdim edib. Cənab Prezidentin başlıca tələb kimi irəli sürdüyü iqtisadi resursların insan kapitalına çevrilməsi əsas tezis kimi önə çəkilib. Son 15 ildə müasir dövrün tələblərindən biri kimi kadr hazırlığına diqqət artıb.”

“İki sahil” qəzetinin Baş redaktoru qeyd edib ki, ölkəmizin hərtərəfli inkişafı, verilən hər bir vədin konkret əməli işdə öz təsdiqini tapması, ən əsası, hər bir addımda xalqa arxalanmaq, əhalinin sosial müdafiəsinin gücləndirilməsinə çalışmaq xalq-iqtidar birliyini daha da möhkəmləndirir: Dövlət başçısının xalqa xidməti hər bir dövlət məmurundan tələb etməsi də ölkə əhalisinə qayğının təzahürüdür. Möhtərəm Prezidentimiz demişdir: “İnsan amili, insan kapitalı. Mən hələ bunu 2003-cü ildə demişəm, biz neft kapitalını insan kapitalına çevirməliyik. Bunu deyəndə təkcə elmə, texnologiyalara, təhsilə qoyulan vəsaitdən söhbət getmir. Söhbət ondan gedir ki, Azərbaycan vətəndaşına hər yerdə hörmət olmalıdır, dövlət qurumları tərəfindən normal rəftar edilməlidir, təhdid edilməməlidir, incidilməməlidir.” Möhtərəm Prezidentimizin vurğuladığı kimi, ən önəmlisi budur ki, Azərbaycan cəmiyyətində islahatların aparılması üçün çox böyük həvəs, maraq və böyük ruh yüksəkliyi vardır.

V.Rəhimzadə bildirib ki, bu gün həll olunmamış yeganə problemimiz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir: “Son 15 ildə əldə etdiyimiz diplomatik uğurlar, ordumuzun artan gücü və qüdrəti bu problemimizin də yaxın vaxtlarda öz ədalətli həllini tapacağına böyük əminlik yaradır. 2016-cı ilin aprel döyüşləri Azərbaycan Ordusunun nəyə qadir olduğunu bir daha dünyaya nümayiş etdirdi. Cocuq Mərcanlıya qayıdış işğal altında olan bütün torpaqlarımıza Böyük Qayıdışa əminliyi daha da artırdı. Bu gün Cocuq Mərcanlı qəsəbəsi bizim dirçəliş rəmzimizə çevrilibdir. Dövlətimizin başçısı bildirir: “Cocuq Mərcanlıya qayıdan həyat hər bir Azərbaycan vətəndaşını ürəkdən sevindirir, onu qürurlandırır.”

“Aprel döyüşləri bizim şanlı tariximizdir, böyük qələbəmizdir” söyləyən Cənab İlham Əliyev üçrəngli bayrağımızın Şuşada, Xankəndidə dalğalanacağı günün uzaqda olmadığını bildirir.”

Baş redaktor əlavə edib ki, fəaliyyətində bu hədəfləri əsas tutan Yeni Azərbaycan Partiyası 11 aprel prezident seçkilərində Cənab İlham Əliyevin qələbəsi ilə bir daha qələbələr ünvanı olduğunu təsdiqlədi: “Xalq Cənab İlham Əliyevə səs verməklə, eyni zamanda, Ulu Öndər Heydər Əliyevin yaradıcısı olduğu Yeni Azərbaycan Partiyasının bu gününə və gələcəyinə inamını nümayiş etdirdi. Ulu Öndər Heydər Əliyevin qeyd etdiyi kimi, YAP dünənin, bu günün və gələcəyin partiyasıdır. Müstəqil Azərbaycanımızın hər uğurunda öz payı olan Yeni Azərbaycan Partiyası özünün əvəzolunmaz Sədri, Möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə Azərbaycana növbəti 7 ilin hədəflərinə öz töhfəsini verməklə uğur səhifələrini daha da zənginləşdirəcək.”

# Azərbaycan dövləti sosial problemlərin həllini diqqətdə saxlayır

*Dövlət başçısının Fərmanına əsasən, şəhid olmuş və itkin düşmüş hərbi qulluqçuların ailələrinə 11 min manat ödəniləcək*

Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi uğrunda döyüşlərdə əlil olmuş vətəndaşların və şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi ölkəmizdə həyata keçirilən sosial siyasətin əsas istiqamətlərindən biridir. Bu gün ölkəmizdə əlilliyi olan şəxslər dövlət qayğısı ilə hərtərəfli təmin olunublar. Azərbaycanda dövlət tərəfindən bu qəbildən olan insanların sosial rifahının yüksəldilməsi istiqamətində mühüm addımlar atılıb, sosial təminatları ildən-ilə daha da yaxşılaşır. Əlilliyi olan şəxslərin maddi və mənəvi təminatlarının gücləndirilməsi, onların reabilitasiyası və cəmiyyətə inteqrasiyası, ictimai həyatın bütün sahələrində fəal iştirak imkanlarına malik olması Azərbaycan dövlətinin sosial siyasətinin əsas istiqamətlərindən biridir. Sağlamlıq imkanları məhdud olan insanların sosial problemlərinin həllinə dövlət büdcəsindən ayrılan vəsaitin hər il artırılması Azərbaycan dövlətinin bu kateqoriyadan olan insanlara diqqət və qayğısının təzahürüdür. Onu da qeyd edək ki, Azərbaycan Prezidentinin 2014-cü il 20 iyun tarixli Sərəncamı müharibə əlilləri və şəhid ailələrinin dövlət tərəfindən mənzillə təminatı işlərinin sürətlənməsinə şərait yaradıb. Dövlət başçısının tapşırığına əsasən, əlillərin evlə təmin olunması istiqamətində də böyük işlər görülüb və görülməkdədir. Bu insanlar üçün hər il orta hesabla 700-dən çox mənzil tikilir. Həmin kateqoriyadan olanlara mənzil və ya fərdi evlər verilib, onlardan, təxminən beş mindən çoxunu Qarabağ müharibəsinin əlilləri və şəhid ailələri təşkil edir.

Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların ailələrinə, fiziki sağlamlığını itirən insanlara, onların problemlərinə böyük həssaslıqla yanaşılır, əlillərin, müharibə veteranlarının, şəhid ailələrinin sosial rifahının yüksəldilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Bildiyimiz kimi, Azərbaycan Prezidenti Cənab İlham Əliyevin imzaladığı məlum sərəncamları ilə bu kateqoriyadan olan şəxslərin sosial müdafiəsi günü-gündən gücləndirilir. Təbii ki, Azərbaycan dövlətinin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün təmin edilməsi və qorunub-saxlanması üçün ölkənin hərbi qüdrətinin artırılması, hərbi-sənaye kompleksinin inkişaf etdirilməsi, silahlı qüvvələrin döyüş qabiliyyətinin gücləndirilməsi və mənəvi-psixoloji vəziyyətinin daha da yüksəldilməsi dövlətin ən ümdə vəzifələrindəndir.

Ötən gün isə şəhid ailələrinə diqqət və qayğının davamı olaraq, Prezident İlham Əliyev Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında Fərman imzalayıb. Bu Fərmana əsasən, 1997-ci il avqustun 2-dək Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə, ölmüş elan edilmiş hərbi qulluqçuların vərəsələrinə Fərmanla müəyyənləşdirilmiş qaydada 11 min manat məbləğində birdəfəlik ödəmə veriləcək. Birdəfəlik ödəmə hərbi qulluqçuların Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq, müəyyən edilən vərəsələrinə təqdim olunacaq.

Vətənin bütövlüyü uğrunda öz canından keçmiş şəhid ailələrinə, həmçinin, müharibə əlillərinə böyük diqqət və qayğı göstərilir. Bu gün Azərbaycan dövlətinin öz vətəndaşlarına göstərdiyi diqqət və qayğı bütün cəmiyyətimiz, o cümlədən, müharibə əlilləri və şəhid ailələri tərəfindən məmnunluqla qarşılanır. Dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin əsas istiqamətlərindən birini müharibə veteranlarının, əlillərinin, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, onların problemlərinin vaxtında həllinə nail olunması və hər cür qayğı ilə əhatə olunması təşkil edir. Ölkə başçısı tərəfindən bu istiqamətdə imzalanan fərman və sərəncamlar çoxsaylı ailələrə böyük sevinc bəxş etməklə yanaşı, təqdirəlayiq hal kimi qiymətləndirilir.

***Zümrüd BAYRAMOVA***

# <u>Musa Quliyev:</u> Son illərdə Azərbaycanda aparılan islahatlar ölkəmizin hərtərəfli inkişafını təmin edib



Prezident İlham Əliyev aprelin 18-də keçirilmiş andiçmə mərasimində 15 il ərzində Azərbaycanın keçdiyi yola nəzər saldı və gələcək perspektivlərin "yol xəritələri"ni cızan konseptual nitq söylədi. Dövlətimizin başçısı göstərdi ki, son 15 ildə Azərbaycan güclənib, dünyada nüfuzu artıb, sosial-iqtisadi cəhətdən inkişaf etmiş qüdrətli bir dövlətə çevrilib. Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Musa Quliyev deyib.

Musa Quliyev bildirib ki, ötən illərdə Azərbaycan əhalisinin sosial rifah halı xeyli yaxşılaşıb, ölkəmizdə 15 il ərzində maaşlar təxminən 7 dəfə, pensiyalar 10 dəfədən çox artıb, yoxsulluq təxminən 50 faizdən 5,4 faizə düşüb. İşsizliyin aradan qaldırılması ilə bağlı böyük işlər görülüb. İşsizlik Azərbaycanda 5 faiz səviyyəsindədir. Bu, dünyada ən yaxşı göstəricilərdən biridir. Azərbaycanda regionların sosial-iqtisadi inkişaf dövlət proqramı uğurla icra olunub. Neft-qaz sektorunun inkişafı ilə yanaşı, qeyri-neft sektoru da inkişaf edib. İnfrastruktur layihələri uğurla həyata keçirilir. Azərbaycana çox böyük investisiyalar yatırılıb. Ölkəmiz dünya miqyasında inkişaf etmiş nüfuzlu dövlətlərdən birinə çevrilib. Xüsusilə son illərdə aparılan islahatlar və qeyri-neft sektorunun inkişafına dair görülən işlər Azərbaycanın hərtərəfli inkişafını təmin edib. Aqrar sektor, turizm, nəqliyyat, informasiya-kommunikasiya texnologiyaları sektoru Azərbaycanda gəlirli sahələrə çevrilib. Azərbaycan dünyanın kosmos dövlətlərindən biridir.

Milli Məclisin deputatı qeyd edib ki, Azərbaycan dünyada ən nüfuzlu təşkilat olan BMT-nin Təhlükəsizlik Şurasının daimi üzvü seçilib və bu təşkilata sədrlik edib. Bütün bunlar hamısı ölkəmizin keçdiyi böyük yolun və qazandığı nüfuzun göstəriciləridir. Azərbaycan regionun ən inkişaf etmiş dövlətidir və bütün regional layihələr ölkəmizin təşəbbüsü və iştirakı ilə həyata keçirilir. Azərbaycanda qədim İpək Yolunun bərpası, Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılması istiqamətində böyük işlər görülüb və bu gün ölkəmiz dünyanın nəqliyyat qovşağından birinə çevrilib. Baxmayaraq bizim açıq dənizlərə birbaşa çıxışımız yoxdur, amma Çin körfəzindən Fars körfəzinə qədər Şimal-Cənub dəhlizi, Çindən, Koreyadan Londona qədər dəmir yolu Azərbaycandan keçir. Bu, Azərbaycana olduqca böyük dividendlər gətirir, istər iqtisadi dividendlər, istər siyasi dividendlər. Bu, ölkəmizdə məşğulluğun artırılması, yoxsulluğun azaldılması, biznesin inkişafına çox böyük töhfələr verəcək. Bu gün Azərbaycan Ordusu regionun və dünyanın ən güclü orduları sırasındadır. Azərbaycan Ordusu istənilən an torpaqlarımızı işğaldan azad etmək, ərazi bütövlüyümüzü təmin etmək qüdrətindədir.

"Prezident İlham Əliyev bundan sonrakı dövrdə də əhalinin sosial rifah halının yüksəldilməsi istiqamətində görüləcək işlərin vacibliyini vurğuladı və Azərbaycanın inkişaf etmiş dövlətə çevrilməsi ilə bağlı görüləcək işləri xatırlatdı. Onun iki il bundan əvvəl imzaladığı bir Fərmanla 11 istiqamət üzrə Azərbaycanın sosial-iqtisadi inkişafının "yol xəritələri" qəbul olunub və uğurla icra edilir. 2025-ci ildə Azərbaycan dünyanın inkişaf etmiş dövlətlərindən biri olacaq. Prezident islahatların aparılmasının günün tələbi olduğunu vurğuladı. Aparılacaq islahatlarda Azərbaycanda əhaliyə xidmətin göstərilməsi, iqtisadiyyatın, biznesin inkişaf etdirilməsi, sahibkarlar üçün daha yaxşı mühitin yaradılması, bürokratik əngəllər, korrupsiya ilə mübarizənin daha yüksək mərhələyə çatdırılması məsələləri əsas yeri tutacaq. Bütün bunlar Prezidentin proqramında mövcuddur.

Dövlətimizin başçısı "ASAN xidmət" brendinin Azərbaycan üçün çox uğurlu bir layihə olduğunu bir daha vurğuladı. "ASAN xidmət"in əhaliyə xidmət göstərilməsinin Azərbaycan modeli kimi dünyada geniş yayıldığını qeyd etdi və belə layihələrin daha da geniş qəbul olunacağını söylədi. Bütövlükdə Prezidentin nitqi konseptual xarakterli bir nitq idi və bunu yaxın yeddi ildə Azərbaycanın sosial-iqtisadi inkişafının "yol xəritəsi" kimi qiymətləndirmək olar", - deyə M.Quliyev vurğulayıb.

# AMEA-nın Ədəbiyyat İnstitutu ilə Pekin Xarici Dillər Universiteti arasında əməkdaşlıq haqqında müqavilə imzalanıb



Aprelin 19-da Azərbaycan Milli Elmlər Akademiyasında (AMEA) Pekin Xarici Dillər Universitetinin (PXDU) ölkəmizdə səfərdə olan nümayəndə heyəti ilə görüş keçirilib. Görüşdə AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu ilə PXDU arasında əməkdaşlıq müqaviləsi imzalanıb. Sənəddə birgə tədqiqatların aparılması, nəşr işləri, qarşılıqlı tədbirlərin təşkili və s. məsələlər əksini tapıb.

AZƏRTAC xəbər verir ki, AMEA-nın prezidenti, akademik Akif Əlizadə ölkəmizdə elmin inkişafı istiqamətində görülən işlər, əldə olunan nailiyyətlər barədə məlumat verib. Akademik Azərbaycan-Çin elmi əlaqələrin genişləndirilməsinin vacibliyini vurğulayıb.

AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli humanitar və ictimai elmlər sahəsində Azərbaycan-Çin elmi əlaqələrindən bəhs edib. Bakı-Tbilisi-Qars dəmir yolunun Avropa ilə Asiyanı birləşdirən "Dəmir İpək Yolu" funksiyasını yerinə yetirdiyini diqqətə çatdıran akademik bu layihənin Çinin "Bir kəmər, bir yol" strategiyasının tərkib hissəsi olduğunu, həm də onu tamamladığını bildirib. Akademik "Bir kəmər, bir yol" strategiyasının təkcə iqtisadi əlaqələri deyil, eyni zamanda, mədəniyyət, elm və təhsil sahəsində əməkdaşlığın genişlənməsinə böyük imkan yaradacağını bildirib. Bu ildən etibarən PXDU-da 12 azərbaycanlı tələbənin təhsil alacağını bildirən İ.Həbibbəyli elm və təhsil sahəsində qurulan əlaqələrin yüksələn xətlə inkişaf etdiyini xüsusi vurğulayıb, PXDU-da yaradılmış Azərbaycan dili kafedrasının, həmçinin Nizami adına Ədəbiyyat İnstitutunda fəaliyyət göstərən Çin Mərkəzinin işini yüksək dəyərləndirib. Çin nümayəndə heyətinin rəhbəri, PXDU-nun rektoru, professor Pen Lon elm və təhsil sahəsində ölkələrimiz arasında ikitərəfli əlaqələrin bundan sonra da genişlənəcəyini əminliklə vurğulayıb.

Görüşdə Azərbaycanın elm ocaqları ilə müxtəlif istiqamətlər üzrə əməkdaşlığın genişləndirilməsi, birgə layihələrin icrası, kadr hazırlığı məsələləri müzakirə edilib. Sonra AMEA-nın Ədəbiyyat İnstitutu ilə PXDU arasında elmi əməkdaşlıq haqqında müqavilə imzalanıb. Sənədi İ.Həbibbəyli və P.Lon imzalayıblar.

# AZAL yay uçuş cədvəli çərçivəsində üç yeni istiqamət açır

"Azərbaycan Hava Yolları" (AZAL) yay uçuş cədvəli çərçivəsində marşrut şəbəkəsində üç yeni istiqamətə - Səudiyyə Ərəbistanının Dammam və Ər-Riyad şəhərləri (iyunun 15-dən sentyabrın 1-dək), eləcə də Monteneqronun populyar kurortu olan Tivata (iyulun 5-dən sentyabrın 15-dək) birbaşa reyslər yerinə yetirəcək. "Azərbaycan Hava Yolları" QSC-nin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, reyslər komfortlu "Airbus A320" laynerləri ilə yerinə yetiriləcək.



Aviabiletin qiymətinə baqajın pulsuz daşınması (23 kiloqrama kimi) və soyuq və isti yeməklərin tam çeşidi daxildir. Aviabiletləri AZAL-ın kassalarında və aviaşirkətin rəsmi agentliklərində https://www.azal.az/az/information/sales-officesbronlaşdırmaq və əldə etmək mümkündür. Yaxın zamanda yeni istiqamətlərə aviabiletləri www.azal.az saytında da əldə etmək mümkün olacaq. Aviabiletləri əldə etmək və daha ətraflı məlumat almaq üçün (+99412) 598-88-80 (Azərbaycandan zənglər üçün qısa nömrə: *8880) telefon nömrələri və callcenter@azal.az elektron ünvanı ilə əlaqə saxlamaq olar.

## Kürdəmirdə dini radikalizmlə mübarizə ilə bağlı ikigünlük seminar-müşavirə keçirilib



Aprelin 19-da Kürdəmirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Kürdəmir Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Dini icmalar və gənclər: dini radikalizmlə mübarizə və birgə fəaliyyətin təşkili" mövzusunda keçirilən ikigünlük seminar-müşavirə öz işini başa çatdırıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, yuxarı sinif şagirdləri, müəllimlər və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi seminar-treninqin ikinci günündə əvvəlcə DQİDK-nın sifarişi ilə çəkilmiş dini radikalizm və terrorizmin fəsadlarından bəhs edən "Üfüqdəki gələcək" sənədli filmi nümayiş etdirilib.

Daha sonra çıxış edən Kürdəmir RİH başçısı aparatının ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı Elxan Qafarov bildirib ki, tədbirin keçirilməsində məqsəd gəncləri dini radikalizm və onun fəsadları barədə məlumatlandırmaqdır. Gənclərin dini radikal qruplara qoşulma səbəbləri haqqında danışan E.Qafarov dini radikalizmə qarşı mübarizə metodları barədə məlumat verib. Qeyd edib ki, dini radikalizmə qarşı mübarizə və gənc nəslin dini radikal qruplara qoşulmasının qarşısını almaq üçün gənclərin düzgün dini bilgilərlə məlumatlandırılması mühümdür. O, bu baxımdan belə seminar-treninqin keçirilməsinin əhəmiyyətini vurğulayıb.

Daha sonra çıxış edən DQİDK sədrinin birinci müavini Səyyad Salahlı gənc nəslin tərbiyə olunmasında milli-mənəvi dəyərlərin xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayıb. Milli-mənəvi dəyərlərin vətənpərvərlik hisslərinin formalaşmasında da mühüm rolu olduğunu deyən sədrin birinci müavini müstəqilliyimizin bərpasından sonra həyata keçirilən uzaqgörən siyasətin bu ümdə dəyərlərimizin qorunub saxlanılması və gələcək nəsillərə çatdırılmasına böyük zəmin yaratdığını qeyd edib. Gənclərə öz tövsiyələrini verən Səyyad Salahlı dini radikal qrupların zərərli təsirindən qorunmaq üçün onlara elm və təhsilə maraq göstərmələrini, asudə vaxtlarını səmərəli keçirmələrini məsləhət görüb.

Sonra DQİDK-nın sektor müdiri Anar Əlizadə çıxış edərək terrorizmin getdikcə daha da gəncləşdiyini, gənclərin terror təşkilatlarına daha çox qoşulduğunu bildirib. Dini radikal qrupların gəncləri özlərinə cəlb etdiklərini qeyd edən sektor müdiri dini radikal qrupların təbliğat metodlarından danışıb. Seminar-treninq iştirakçılarını maraqlandıran sualların cavablandırılması ilə yekunlaşıb.

## Fransa mətbuatı: "Sarkisyan hakimiyyətdə qalmaq üçün hər şey etməyə hazırdır"



Ermənistanda baş verən etiraz aksiyaları xarici KİV-lərin də diqqətindən yayınmır. SİA-nın xarici mətbuata istinadən verdiyi xəbərə görə, Fransanın "Liberation" qəzeti də baş verənlərə biganə qalmayaraq, Ermənistanda xalqın hakimiyyətə qarşı etirazına yer ayırıb. Belə ki, qəzetdə dərc olunan yazıda bildirilir ki, 2008-ci ildən hakimiyyətdə olan bir şəxslə bağlı günlərdir gedən etirazlara baxmayaraq həmin şəxs ölkənin baş naziri təyin edilib.

Yazıda Ermənistanın müxalifət deputatı Nikol Paşinyanın fikirləri də yer alıb: "Ermənistan üçün görünməmiş hadisə: bir və eyni şəxs, üç dəfə ardıcıl olaraq ölkəni idarə etmək istəyir". Yazıda bildirilir ki, həftənin çərşənbə axşamı günü Ermənistanın paytaxtında 10 min insanın iştirakı ilə etiraz mitinqi keçirilib. Lakin əhalinin narazılığı görünür 63 yaşlı Sarkisyanın baş nazir seçilməsinə mane ola bilməyib. Yazıda Sarkisyanın iki prezidentlik dövründə hakimiyyəti əlindən verməməsi istiqamətində bütün addımlar atdığı bildirilir: "Onun hakimiyyətdə qalması ilə bağlı ssenari əvvəlcədən yazılmışdı. Belə ki, keçmiş prezident özünü varis gördüyü üçün 2015-ci ildə Konstitusiya dəyişiklik edərək, Ermənistanı prezident rejimindən parlament rejiminə keçirtdi. 2017-ci ildə qüvvəyə minən dəyişiklik əsasında da Sarkisyan hökumətin başında qalmaq üçün özünü baş nazir təyin etməyə məcbur etdi". Qəzetdə dərc olunan məqaləyə görə, edilən etirazlar vəziyyəti tam dəyişməyə imkan verməsə də, ümumilikdə bu cür mitinqlər işin gedişatını dəyişmək üçün müsbət rola malikdir. Yazılanlara görə, ermənilər mövcud hakimiyyətə qarşı mənfi münasibətdədirlər. Lakin Sarkisyan və onun partiyası insanlara başqa mümkün seçim olmadığını düşünürlər. Amma Sarkisyan və partiyası onlara başqa bir seçimin olmadığını düşünməyə məcbur edirlər.

## Moskvada ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyinə dair "dəyirmi masa" keçirilib



Azərbaycan Dillər Universitetinin (ADU) Yeni Azərbaycan Partiyasının və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin dəstəyi ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illik yubileyinə həsr olunmuş "Heydər Əliyev: multikulturalizm və tolerantlıq ideologiyası" mövzusunda birinci beynəlxalq elmi konfrans çərçivəsində Moskva Dövlət Linqvistika Universitetində (MDLU) "dəyirmi masa" keçirilib.

AZƏRTAC xəbər verir ki, "Dillər və mədəniyyətlər dialoqu çoxqütblü dünyada dinc yanaşı yaşama amili kimi" mövzusuna həsr edilən tədbir ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş filmin nümayişi ilə başlayıb.

Azərbaycanın Mədəniyyət və Turizm Nazirliyinin Rusiya üzrə nümayəndəsi Nigar Axundova ümummilli lider Öndər Heydər Əliyevin həyat və fəaliyyətinin Rusiya dövrünə dair maraqlı faktlar açıqlayıb, dahi şəxsiyyətin sənaye, səhiyyə, sosial həyat və digər sahələrdə mühüm islahatlar həyata keçirdiyini qeyd edib.

Tarixçi Manaf Ağayev Ümummilli Liderin Rusiyada Azərbaycan diasporunun formalaşmasında xidmətlərindən danışıb, azərbaycançılıq ideyasının inkişafında rolunu vurğulayıb.

ADU-nun Rusiyaşünaslıq Mərkəzinin müdiri Məmməd Əliyev "Heydər Əliyev və müasir Azərbaycanda dini tolerantlıq" mövzusunda məruzə ilə çıxış edib, "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev multikulturalizmin Azərbaycan modeli haqqında" kitabını universitetin ktabxanasına təqdim edib.

MDLU-nun tarix elmləri fakültəsinin dekanı Vladimir Korneyev, MQLU Elmi Şurasının elmi katibi Anton Yemelyanov və başqaları ulu öndər Heydər Əliyevin Rusiya ilə Azərbaycan arasında dostluq əlaqələrinin möhkəmlənməsində müstəsna xidmətlərindən, zəngin dövlət idarəçilik təcrübəsindən danışıblar.

## "Ermənistan xəritədən silinə bilər"



"Hesab edirəm ki, təkcə Ermənistanda olan ermənilər yox, bütün dünya erməniləri ayağa qalxmalı, Ermənistan xalqını, dövlətini bu rüsvayçılıqdan qurtarmaq üçün Sarkisyan və onun kimiləri, onun komandasını hakimiyyətdən uzaqlaşdırmalıdır". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Elman Məmmədov deyib. Onun sözlərinə görə, Sarkisyan kimilər layiqli cəzalarına çatmalıdırlar: "Ermənistanda etiraz aksiyalarının daha da alovlanacağına inanıram. Ermənistan cəmiyyətində hakimiyyətə qarşı etiraz aksiyaları çoxdan olmalı idi. Xalq inadından dönməməli, geri çəkilməməlidir. Ermənistan xalqı cəhd etməlidir ki, hakimiyyətdəki bu zir-zibili süpürüb atsın və Ermənistan Cənubi Qafqazda başqa dövlətlərlə əməkdaşlıq və tərəfdaşlıq şəraitində yaşasın".

E.Məmmədovun fikrincə, əgər Sarkisyan hakimiyyətini davam etdirsə, Ermənistan dövlətinin xəritədən silinməsi məsələsi ortaya çıxa bilər: "Çünki bu gün ermənilər imkan tapan kimi baş götürüb Ermənistandan qaçır. Ona görə də Ermənistan vətəndaşları bu aksiyaları davam etdirməli, hazırkı hakimiyyətdən xilas olmalıdır".

## Azərbaycan Gürcüstanın xarici ticarət tərəfdaşları sırasında üçüncü yerdədir



Türkiyə, Rusiya və Azərbaycan Gürcüstanın əsas ticarət tərəfdaşlarıdır. AZƏRTAC xəbər verir ki, bu barədə Gürcüstan Milli Statistika Xidməti məlumat yayıb. Məlumatda deyilir ki, cari ilin 3 ayında Gürcüstanın xarici ticarət dövriyyəsi ötən ilin eyni dövrü ilə müqayisədə 23,3 faiz artaraq 2,82 milyard dollar təşkil edib. Qonşu ölkənin ixracatı 28,4 faiz artaraq 740,3 milyon dollara, idxalı isə 21,6 faiz artaraq 2 milyard 83,4 milyon dollara çatıb. Gürcüstanın xarici ticarətinin 404,4 milyon dolları Türkiyə, 311,1 milyon dolları Rusiya ilə olub.

Azərbaycan ilə Gürcüstan arasında ticarət dövriyyəsi 270 milyon 209 min dollar təşkil edib. Bu göstərici ilə Azərbaycan Gürcüstanın xarici ticarət tərəfdaşları sırasında Türkiyə və Rusiyadan sonra 3-cü yerdədir.

Cari ilin birinci rübündə Azərbaycan qonşu ölkədən 76 milyon 435,2 min dollar həcmində məhsul idxal edib. Azərbaycandan Gürcüstana 193 milyon 774,1 min dollar dəyərində məhsul ixrac olunub. Hesabat dövründə Gürcüstan Azərbaycandan ən çox neft və neft yağları, neft qazları, elektrik enerjisi, sement və gips, anhidrit və gipsli bağlayıcılar idxal edib.

## "Gürcüstan narkotiklərə qarşı mübarizə sahəsində Azərbaycan ilə sıx və səmərəli əməkdaşlıq edir"

Gürcüstan Daxili İşlər Nazirliyi (DİN) ümumi dəyəri 1,5 milyon dollar olan 400 kiloqramdan çox narkotik və psixotrop maddəni qanunsuz dövriyyədən çıxararaq məhv edib. AZƏRTAC xəbər verir ki, əsasən kokain, heroin, "subteksa", "kodein" həbləri, habelə həm toz, həm də həb halında "metadon" və "MDMA" psixotrop maddələr yandırılaraq məhv edilib. Bu narkotiklərin ümumi dəyəri "qara bazarda" 4 milyon lari (1,5 milyon dollar) qiymətləndirilir.

Gürcüstanın daxili işlər naziri Giorgi Qaxariya jurnalistlərə açıqlamasında bildirib ki, narkotiklər ölkəyə əsasən İrandan və bəzi qonşu ölkələrdən gətirilir. Nazirlik və digər müvafiq dövlət orqanları narkotiklərə qarşı mübarizəni daha da gücləndiriblər. Bunun sayəsində ölkədə narkotiklərin qanunsuz dövriyyəsinin qarşısının alınmasında böyük işlər görülüb. Məhv edilən narkotiklər də birgə əməliyyatlar nəticəsində



ələ keçirilib. Nazir deyib: "Ölkədə cinayətkarlığın və xüsusən də narkotiklərin qanunsuz dövriyyəsinin qarşısını almaq, ictimai sabitliyi və təhlükəsizliyi möhkəmləndirmək məqsədilə xüsusi layihə hazırlanıb. Bu layihə bir çox ölkələrin təcrübəsinə əsaslanaraq hazırlanıb". G.Qaxariya bildirib ki, Gürcüstan narkotiklərə qarşı mübarizə sahəsində qonşu ölkələr, o cümlədən Azərbaycan ilə sıx və səmərəli əməkdaşlıq edir.

# İnqilab və Serj Sarkisyanın devrilməsinin reallığı



## Bu ab-hava bütün Ermənistanı bürüyüb













***Ermənistan parlamentinin müxalifətdən olan "Yelk" ("Çıxış") fraksiyasının rəhbəri Nikol Paşinyanın liderliyi ilə, artıq bir neçə gündür ki, davam edən kütləvi etirazlar dalğası bu ölkədə inqilab faktorunun yetişdiyini açıq-aydın göstərməkdədir. Artıq Ermənistan mediasına açıqlama verən erməni politoloqları, ictimai-siyasi şəxsləri, eləcə də, xarici mətbuat da qiyamın qaçılmaz olduğunu, Serj Sarkisyan rejiminin devrilməyə doğru sürətlə irəlilədiyini qeyd edirlər.***

Ölkənin aparıcı media qurumlarından olan "1in.am" saytı xəbər verir ki, bir müddət etiraz dalğasına qoşulmaqda tərəddüd edən siyasilər də Paşinyanın hərəkatına dəstək vermək qərarına gəliblər. Halbuki bir müddət öncəyə qədər bir sıra müxalifət partiyaları, QHT-lər və s. adda ictimai birliklər gözləmə mövqeyi tuturdular.

### Sasun Mikaelyan: "Hakimiyyət anlamalıdır ki, onların ikinci variantları yoxdur və hər şeylərini qoyub, bu ölkədən rədd olmalıdırlar"

Bu arada, N.Paşinyanın sədri olduğu Vətəndaş Sazişi Partiyasının idarə heyətinin üzvü Sasun Mikaelyan ölkə müxalifətinin bir hissəsindən dəstək almağa başladıqlarını bildirib və qeyd edib ki, bütün hallarda hakimiyyət qan tökmədən getməyə məhkumdur: "Tezliklə qələbəmizi qeyd edəcəyik. Hakimiyyət anlamalıdır ki, onların ikinci variantları yoxdur və hər şeylərini qoyub, bu ölkədən rədd olmalıdırlar".

Mikaelyan qeyd edib ki, nümayişlərdə cəmiyyətin müxtəlif təbəqələri iştirak edir və o, xüsusilə, gənclərin onlara qoşulmasının vacibliyini deyib: "Gənc oğlanlarda 200-300 dram (erməni pul vahidi-R.R.) yoxdur ki, öz sevgililərinə çiçək alsınlar. Onlar başqa nə etməlidirlər ki? Əlac budur ki, çıxsınlar, döyüşsünlər və qələbə qazansınlar".

### "Qarabağ" komitəsinin üzvü Aşot Manuçaryan: "Sarkisyan ən axırıncı fahişə statusundan da aşağı səviyyədədir"

"Qarabağ" komitəsinin üzvü Aşot Manuçaryan da bildirib ki, etiraz dalğasında onların gənclərə böyük ehtiyacları var idi və bu fakt reallaşır. "Artıq gənclər ayağa qalxıblar və indi anlamağa başlayıblar ki, öz ölkəsinin ağası olmaq nədir"-deyə qeyd edən Manuçaryan əlavə edib ki, həmin gənclər yollarını azaraq, doğru olmayan nə isə edə bilərlər, ancaq onları günahlandırır: "Bəzi "ağıllılar" belə gənclərin beyinlərini yumaqla məşğuldurlar. Mən həmin "ağıllılardan" soruşmaq istəyirəm ki, sizin işiniz yalnız hakimiyyətdən pul qazanmaqdan ibarətdir?"

"Bu gənclərin atalarından oğurluq edirlər və nəticədə, atalar xaricə gedirlər ki, öz ailələrini saxlasınlar. Bunlar isə heç nə etmədən, ayaqlarını rahatca uzadaraq, ailələrə göndərilən həmin pulları çeynəməlidirlər?!"- deyə Manuçaryan bildirib.

Komitə sədri daha sonra bildirib: "Serj Sarkisyan artıq mövcud deyil. O, xalqla saziş bağladı və dedi ki, yeni konstitusiyanı qəbul edin, bundan sonra nə edibsə-etməyibsə, sakitcə çıxıb gedəcək. O, xalqa andda içdi və indiyə qədər onlarla belə vədlər verib. Vədini pozan, andını pozan isə ən axırıncı fahişə statusundan da aşağı səviyyədədir".

### Fransanın "Liberation" nəşri: "Serj Sarkisyan hakimiyyəti əlində saxlamaq üçün hər şeyə hazırdır"

Fransanın nüfuzlu "Liberation" nəşrinin jurnalisti Aureliya Abdelbost yazıb ki, bir həftəyə yaxındır davam edən etiraz mitinqlərinə baxmayaraq, 2008-ci ildən hakimiyyətdə olan və hazırda həmin hakimiyyətini əldən vermək istəməyən Serj Sarkisyan minlərlə etirazçının tələblərinə məhəl qoymur. Fransalı jurnalist məqaləsində Nikol Paşinyanın "Bu gün mən Ermənistanda "məxməri inqilab"ın başlandığını bəyan edirəm" fikirlərini gətirir və yazır ki, bənzər hal 1989-cu ildə Çexoslovakiyada baş vermişdi. "Lakin xalq etirazları 63 yaşlı Serj Sarkisyanın həftənin çərşənbə axşamı günü hakim Respublika Partiyasından baş nazir seçilməsinə mane olmadı" Aureliya Abdelbost yazıb.

### "Nouvelles d'Armenie" jurnalının baş redaktoru Ara Toranyan: "Sarkisyana yalnız bir iş qalırdı, partiyasının hakimiyyəti idarə etməsi üçün özü-özünü baş nazir təyin etsin..."

Məqaləsində Fransa Erməni Təşkilatlarının Koordinasiya Şurasının (CCAF) həmsədri, "Nouvelles d'Armenie" jurnalının baş redaktoru Ara Toranyandan da sitat gətirən fransalı jurnalist qeyd edir: "İki maksimumu əldə etdikdən, yəni iki dəfə prezident seçildikdən sonra, o, dövlət başçısı olmaq üçün hər şey etdi. Ssenari əvvəlcədən yazılmışdı, prezident özü-özünü sələfi kimi görmək istəyirdi, ancaq bunu edə bilmədiyi üçün, 2015-ci ildə konstitusiya islahatları ilə bağlı referendum təyin etdi ki, bu da prezident rejiminin parlament rejimi ilə əvəzlənməsi ilə nəticəsini tapdı. Sarkisyana yalnız bir iş qalırdı, partiyasının hakimiyyəti idarə etməsi üçün özü-özünü baş nazir təyin etsin..."

### Politoloq Stepa Safaryan: "Sarkisyan və onun partiyası xalqın başqa yolunun olmadığını zorla dərk etdirərək, sadə erməniləri belə düşünməyə vadar etdi"

"Liberation" nəşrinə açıqlama verən erməni politoloqu Stepa Safaryan isə, bildirib ki, hətta etirazlar hadisələrin gedişinə mane ola bilməsə belə, baş verənlər erməni xalqı üçün pozitivdir: "Onlar Respublika Partiyasına nümayiş etdirirlər ki, vətəndaş mövqeyindən çıxış etdiyini iddia edən siyasi partiya demokratiyanı müdafiə etməlidir və heç bir halda, hər şeyin ona məxsus olduğunu, qarşısına çıxan maneələrə məhəl qoymayaraq, nə istəsə edə biləcəyi amilini düşünməməlidir.

Sonda isə, bildirilir ki, Safaryana görə, ermənilər mövcud Sarkisyan rejiminə simpatiya duymayıb və duymayacaq da: "Lakin Sarkisyan və onun partiyası xalqın başqa yolunun olmadığını zorla dərk etdirərək, sadə erməniləri belə düşünməyə vadar etdi".

***Rövşən RƏSULOV***

# Suraxanı rayonu dinamik inkişaf yolunda

***Ölkə rəhbərliyinin uğurla həyata keçirdiyi məqsədyönlü siyasət sayəsində ölkə həyatı üçün strateji əhəmiyyət daşıyan inkişaf proqramlarının hazırlanması və işlək mexanizmlər əsasında həyata keçirilməsi, müxtəlif sahələrdə intibah prosesinin geniş vüsət alması ilə səciyyəvidir. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycan iqtisadi cəhətdən möhkəmlənib, sosial-iqtisadi yüksəlişi ilə müşahidə olunan uğurlar, ilk növbədə, insanların gündəlik həyatında özünü daha qabarıq büruzə verir. Əlbəttə ki, Möhtərəm Prezidentin rəhbərliyi ilə reallaşdırılan ümummilli inkişaf strategiyası, həyata keçirilən dövlət proqramları, aparılan islahatlar hər bir sahənin paralel inkişafını ən yüksək səviyyədə təmin edib və tərəqqi bu gün də davam etməkdədir. Prezident İlham Əliyev çıxışlarının birində qeyd edib ki, gündəlik fəaliyyətimizdə Azərbaycan xalqının həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində əməli-praktiki addımlar atılmışdır: "...Bizim əsas strateji məqsədimiz və hədəfimiz ölkəmizi daha da gücləndirməkdir, Azərbaycan dövlətinin qüdrətini artırmaqdır, müstəqilliyimizi möhkəmləndirməkdir".***



Bəli, bu uğurlu inkişaf Azərbaycanın hər bir bölgəsində və guşəsində özünü büruzə verir. Regionların sosial-iqtisadi inkişafı ilə yanaşı, Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair dövlət proqramları Azərbaycanın, paytaxt Bakının mənzərəsinə qeyri-adi gözəllik və yeni rənglər əlavə edib. Məlum dövlət proqramlarında müəyyən olunmuş iqtisadi inkişaf hədəfləri təmin olunub, nəzərdə tutulmuş bütün işlər vaxtında və keyfiyyətlə yerinə yetirilib.

Belə bir dövrdə Bakının rayonları sırasında olan Suraxanı rayonu da özünün yeni inkişaf mərhələsini yaşayır. Əsrin əvvəlləri ilə bugünkü Suraxanını müqayisə etdikdə, tamamilə başqa bir ab-havanının şahidi olarıq. 210,5 min nəfər əhalisi olan rayon ərazisində yerləşən Əmircan, Bülbülə, Qaraçuxur, Hövsan, Yeni Suraxanı, Zığ qəsəbələrinin hər birində uğurlu layihələr icra olunub. Bu gün rayonda 58 iri sənaye müəssisəsi, 35 ümumtəhsil müəsisəsi, 25 istirahət parkı, 8 mədəniyyət sarayı və evi, 12 məscid və s. fəaliyyət göstərir.

## QABAQCIL TEXNOLOGİYALARA ƏSASLANAN YENİ MÜƏSSİSƏLƏRİN İSTİFADƏYƏ VERİLMƏSİ İNSANLARIN SOSİAL-RİFAHINI YÜKSƏLDİB

Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev tərəfindən sistemli şəkildə həyata keçirilən məqsədyönlü və düşünülmüş islahatların məntiqi nəticəsi olaraq, Suraxanı rayonunda da iqtisadiyyatın surətli inkişafı, insanların yaşayış şəraitinin yaxşılaşması, yoxsulluğun və işsizliyin azaldılması, sabitliyin möhkəmlənməsi təmin edilib. Həyata keçirilən abadlıq-quruculuq işləri, infrastrukturun yenilənməsi və s. rayona səfər edənlərin diqqətindən yayınmır.

2003-cü ildən başlayaraq, Suraxanıda 31 dəfə səfərdə olan və rayonun inkişafına daim böyük diqqət göstərən ölkə başçısının iştirakı ilə yeni sənaye müəssisələrinin və sosial obyektlərin açılışı artıq rayonun böyük sürətlə inkişafından xəbər verir. Suraxanı rayonunda Heydər Əliyev Mərkəzinin, Hövsan qəsəbəsində Taxıl Terminalının, Aslan Muradov adına 84 nömrəli tam orta məktəbin və digər idarə və müəssisələrin açılışında iştirak edən Cənab Prezident rayonun inkişafı, daha da abadlaşdırılması istiqamətində öz tövsiyələrini də verib.

Qabaqcıl texnologiyalara əsaslanan yeni müəssisələrin istifadəyə verilməsinin nəticəsi olaraq, insanların sosial-rifahı yüksəlib.Bu gün rayonda fəaliyyət göstərən iri sənaye müəssisələrinin sayı 58-dir. Təkcə ötən bir il ərizində rayonda sənaye məhsulunun istehsalı 145% təşkil etmiş, 4840 yeni daimi iş yeri açılmışdır ki, bu statistik rəqəmlər də rayonun dinamik inkişafının bir nümunəsidir.

## VƏTƏNDAŞLARIN MƏMNUNLUĞU TƏMİN OLUNUB

Həqiqətən də, bu günün real mənzərəsi rayon haqqında çox amilləri ortaya qoyur. Suraxanı rayonunda həyata keçirilməsi nəzərdə tutulmuş proqramlar uğurla icra olunur. Rayonun hər bir qəsəbəsində, küçəsində yenidənqurma layihələri reallaşdırılıb, küçələrə və məhəllədaxili ərazilərə asfalt örtüyü çəkilib, cari təmir işləri aparılıb, eləcə də, qəsəbələri birləşdirən avtomobil yolları yenidən qurulur. Heç şübhəsiz ki, hər sahədə qazanılan uğurların təməlində Prezident İlham Əliyevin qətiyyəti, əzmkarlığı və Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqincə davam etdirilməsi dayanır. Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin respublikada ekoloji tarazlığın qorunması ilə bağlı verdiyi müvafiq tapşırıq və tövsiyələrə uyğun olaraq Suraxanı rayonunun bütün qəsəbələrində ağacəkmə aksiyaları davamlı olaraq keçirilir. Rayonda "Nümunəvi abad məhəllə", eləcə də, İDEA İctimai Birliyinin təşəbbüsü ilə "Abad həyət - Sağlam həyat" layihəsi çərçivəsində bir çox yaşayış binalarının həyətində abad məhəllə salınıb.

Vətəndaşların yaşayış sahələrinə olan ehtiyacını ödəmək, onların mənzil-məişət şəraitini yaxşılaşdırmaq, müasir tələblərə cavab verən çoxmənzilli binaların tikintisini reallaşdırmaq məqsədilə həyata keçirilən tədbirlər də öz müsbət nəticəsini verir. Çəkilən su və kanalizasiya xətlərinin məntiqi nəticəsi olaraq rayon əhalisinin 58 faizi qrafiklə, 38 faizini isə fasiləsiz su ilə təmin olunub, eləcə də, yeni qaz kəməri çəkilib və ya əsaslı təmir olunub.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "ASAN Xidmət Mərkəzi"nin xüsusi avtobusları vasitəsilə rayonun qəsəbələrində vətəndaşlara səyyar formada xidmət göstərilir.

Rayon sakinləri hər görülən işdən məmnundurlar. Belə ki, yararsız və ya qəzalı vəziyyətdə olan mənzillərdə yaşayan sakinlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, şəhərin ümumi görünüşünə xələl gətirən yaşayış binalarının, habelə, digər obyektlərin sökülərək, yenilərinin inşa edilməsi ilə bağlı Nazirlər Kabinetinin müvafiq qərarına əsasən, müəyyən tədbirlər görülür. Qaraçuxur qəsəbəsi, Əhməd Mehbalıyev küçəsi, 34, 36 və Qəzənfər Vəliyev küçəsi, 13 ünvanlarında yerləşən istismara yararsız evlərin yerində çoxmərtəbəli yaşayış binaları tikilir. Təkcə ötən bir il ərizində Hövsan qəsəbəsində 9 ədəd çoxmənzilli yaşayış binası təmir edilib, rayonun mənzil-kommunal birlikləri tərəfindən 40-a yaxın çoxmənzilli yaşayış binasının həyətləri abadlaşdırılıb.

Əhalinin məşğulluq səviyyəsinin artırılması məqsədilə işsiz vətəndaşların ödənişli ictimai faydalı işlərə cəlb edilməsinə də mühüm önəm verilib. Rayon Məşğulluq Mərkəzi tərəfindən vətəndaşlar işlə təmin edilib, eləcə də, peşə hazırlığı kurslarına cəlb olunub. Onu da vurğulamaq yerinə düşər ki, sahibkarlığa kömək məqsədi ilə Hövsan qəsəbəsində yaradılmış zeytunçuluq təsərrüfatına 3,6 milyon manat güzəştli kredit verilmiş, 113 yeni iş yerinin yaradılacağı nəzərdə tutulub. Rayonda görülən işlərin məntiqi davamı olaraq bu ərazidə olan məcburi köçkün ailələrinin problemlərinin həlli də daim diqqət mərkəzində saxlanılır. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın qaçqın və məcburi köçkün ailələrinin problemlərinin həlli ilə bağlı verdiyi tapşırıqlara əməl olunur. Məcburi köçkünlərin məskunlaşdığı Hövsan qəsəbəsindəki "Gilavar" uşaq bağçasının və H.Quliyev küçəsi, 22 saylı ünvandakı yataqxananın, Bülbülə qəsəbəsindəki "Azərtuneltikinti" şirkətinə məxsus yataqxananın dam örtükləri təmir edilib, yurd-yuvalarından didərgin düşən insanların bir çox məişət problemləri həll edilib.

Görülən işlərin nəticəsində, rayonun hər yerində genişmiqyaslı abadlıq-quruculuq işləri həyata keçirilib, hər bir qəsəbənin və küçənin siması tamamilə dəyişib. Cənab İlham Əliyevin vurğuladığı kimi, "Bugünkü reallıqlar, bölgələrimizin çiçəklənməsi, bütün şəhərlərimizdə gedən quruculuq-abadlıq işləri göstərir ki, biz düzgün yoldayıq".

## MÜASİR İNFRASTRUKTUR TURİST AXININI GÜCLƏNDİRİB

Həyata keçirilən tədbirlər müasirliklə tarixin qovuşağı olan bir məkanda, sabitliyin, əmin-amanlığın ölkəmizdə hökm sürdüyü bir zamanda rayonun yeni bir inkişaf dövrü yaşamasından xəbər verir. Son on beş ildə, ölkə həyatının bütün sahələri kimi, milli turizm sənayesinin də inkişafı istiqamətində atılan addımlar Suraxanı rayonuna da turist kimi səfər edənlərin sayının artmasına səbəb olub. Rayonda yaradılan müasir infrastruktur - rahat yollar, istirahət və əyləncə kompleksləri və sağlamlıq mərkəzləri müxtəlif ölkələrdən turistlərin bura gəlmələrinə şərait yaradır. Azərbaycanın yüksək səviyyədə ev sahibliyi etdiyi forumlar, festivallar, idman yarışları, simpoziumlar çərçivəsində ölkəmizə gələn turistlər bu ərazidə yerləşən Od məbədi olan "Atəşgah məbədi" ilə tanış olurlar. XVII-XVIII əsrlərdə qədim atəşpərəstlər məbədinin qalıqları üzərində, təbii qazın çıxdığı əbədi məşəlin yerində inşa edilmiş bu məbədin özünəməxsusluğu, unikallığı diqqəti cəlb edir və UNESCO-nun Dünya İrsinin İlkin Siyahısına daxil olunub. Ötən il "Atəşgah məbədi" Dövlət Tarix-Memarlıq Qoruğu 30751 nəfər ziyarətçi qəbul edib. Bu da 2016-cı illə müqayisədə 27 faiz çoxdur. Onu da qeyd edək ki, 2015-ci ildə Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev "Atəşgah Məbədi" Dövlət Tarix-Memarlıq Qoruğunda I Avropa Oyunlarının məşəlini alovlandırıb.

Bu gün Azərbaycanın müstəqil dövlət kimi mövcudluğu, inamlı və stabil inkişafı ölkəmizin Prezidenti Cənab İlham Əliyevin həyata keçirdiyi düşünülmüş siyasətinin məntiqi nəticəsidir. Möhtərəm Prezidentimiz Cənab İlham Əliyev öz iradəsi, insanlara doğru yolu göstərmək bacarığı ilə xalqı vahid məqsəd uğrunda səfərbər edən və arxasınca aparan əvəzolunmaz Liderdir. Bütün bu inkişaf göstəriciləri insanlarda qəti bir əminlik formalaşdırıb ki, növbəti 7 ildə də Azərbaycan Cənab İlham Əliyevin rəhbərliyi altında yeni inkişaf mərhələsini yaşayacaq. Azərbaycan Prezidentinin vurğuladığı kimi, "Keçdiyimiz yol şərəfli yoldur, qələbələr və uğurlar yoludur. Əminəm ki, biz həmişə qələbələr yolu ilə gedəcəyik".

*Zümrüd BAYRAMOVA*

***Yazı Suraxanı Rayon İcra Hakimiyyəti və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçündür***

TƏRS BAXIŞ

# ADP-"REAL" qarşıdurması şiddətləndi

## Natiq Cəfərli: "O, Azərbaycan siyasətinin ən qeyri-ciddi siyasətçilərindəndir"

***ADP sədri Sərdar Cəlaloğlunun, bir neçə gün əvvəl, mediaya verdiyi açıqlamasında "REAL"ın həbsdə olan rəhbəri İlqar Məmmədovu hədəfə alması və bunun ardınca, tərəflərin bir-birlərini ən sərt şəkildə təhqir etmələri vəziyyətin daha da gərginləşməsinə səbəb olub. Belə ki, S.Cəlaloğlunun İ.Məmmədovun Azərbaycanın dövlət maraqlarına qarşı xəyanətkar mövqe tutması, Avropa təşkilatlarında ölkəmiz əleyhinə çıxış edən, eyni zamanda, Qarabağ problemi ətrafında bir sıra avropalı parlamentarilərin təklifləri ilə razılaşması durumun bu məcraya qədər yüksəlməsinə şərait yaradıb. Nəticədə, sosial şəbəkələrdə "REAL" tərəfdarları ADP sədrinin ünvanına ən təhqiramiz fikirlər yazırlar.***

### Sərdar Cəlaloğlu: "Sonralar İlqar Məmmədovun özü də bunu təsdiqlədi"

Xatırladaq ki, Cəlaloğlu İ.Məmmədovu bu ifadələri ilə suçlamışdı: "AMİP-in özündə belə İlqar Məmmədov tanınmırdı. Bu partiyadan çıxandan sonra Amerika səfirliyində işlədi. Ondan sonra bir QHT yaratdı və orada da Azərbaycana qarşı çox xəyanətkar bir sənədə qol çəkib. Mən, İsa Qəmbər, Əli Kərimli və Pənah Hüseyn Avropa İttifaqının nümayəndələri ilə görüşəndə, dedik ki, bu birliyə inteqrasiyamızda əsas hədəflərdən biri Dağlıq Qarabağ münaqişəsinin ədalətli həll olunmasıdır. Onlar bizə həmin vaxt dedilər ki, siz heç vaxt Avropa İttifaqı çərçivəsində Dağlıq Qarabağ məsələsini qaldıra bilməzsiniz. Səbəbini soruşduqda, şok yaradacaq bu cavabı verdilər ki, siz bizə sənəd vermisiniz və bir şərtlə Avropa İttifaqına üzvlüyə razısınız ki, heç vaxt Dağlıq Qarabağla bağlı məsələ qaldırmayacaqsınız. Belə bir sənədə qol çəkmədiyimizi deyəndən sonra, bildirdilər ki, sizin bir birliyiniz var, ora 29 təşkilat daxildir, sədri İlqar Məmmədovdur, o, bizə belə bir sənəd verib. Sonralar İlqar Məmmədovun özü də bunu təsdiqlədi..."

S.Cəlaloğlu "REAL"ın, nəinki hakimiyyətə qarşı, hətta Azərbaycandakı ən zəif partiyaya belə alternativ olmadığını bildirib. Eyni zamanda, ADP sədri İ.Məmmədovun təşkilatının kadr potensialının olmadığını, "REAL" sədrinin şəxsi keyfiyyətlərinin və qabiliyyətinin olmadığını da deyib.



### Natiq Cəfərli: "Sərdar Cəlaloğlu ilə bağlı məhkəmə sənədlərində onun xarici orqanlarla əlaqələri və görüşləri barədə məlumatlar var"

"REAL"ın icraçı katibi Natiq Cəfərli isə, öz növbəsində, ADP sədrinə sərt cavab verərək deyib ki, Sərdar Cəlaloğlu Azərbaycan siyasətində ən qeyri-ciddi siyasətçilərdən biridir: "Onun bu günə qədər səsləndirdiyi fikirlər və tezislər çox zaman gülüş doğurur. Bu baxımdan, açığı, ona ciddi cavab verməyə çox çətinlik çəkirəm. Səsləndirdiyi ittihamlarla bağlı əlində sübutlar varsa, ortaya qoysun".

"Sərdar Cəlaloğlu İlqar haqqında çox şeylər deyə bilər. Amma bu məsələ ilə bağlı onun mövqeyi tamamilə absurddur"-deyə siyasi təşkilatın səlahiyyətlisi bildirib.

N.Cəfərli ADP sədrinin dediyi sənədin Sivil Toplum Platforması olduğunu deyib və bildirib ki, orada "REAL"ın adı olmayıb: "Həmin vaxt "REAL" təzəcə yaranmışdı. Bu, adi bir platforma idi. Hakimiyyət Dağlıq Qarabağ münaqişəsinin həlli üçün sülh yolunu əsas sayır. Əslində, düzgün də siyasət budur. Açıq şəkildə bəyan edə bilmərik ki, müharibə edəcəyik...Sərdar bəyin yəqin bunlardan xəbəri yoxdur. Onun nə beynəlxalq aləmdə nüfuzu var, nə də beynəlxalq konfranslarda iştirak edib. Bu günə qədər yalnız daxili auditoriya üçün çıxışları olub. Onu qınamıram, köhnə fikirli, dünyadan bixəbər insandır".

"REAL"çı, öz növbəsində, S.Cəlaloğlunun zamanında xaricin gizli təşkilatları ilə iş birliyində olması ilə bağlı faktların olduğunu da deyib: "Sərdar Cəlaloğlu ilə bağlı məhkəmə sənədlərində onun xarici orqanlarla əlaqələri, görüşləri barədə məlumatlar var. Onun tipində olan siyasətçilər prosesləri anlamaq iqtidarında deyillər... Bir şəxsdən ibarət olan partiyanın sədrinin bu cür fikirlər səsləndirməsi, doğrudan da, çox qeyri-ciddilikdir".

### AXCP sədri Əli Kərimli, Müsavatın sabiq başqanı İsa Qəmbər və hazırkı sədri Arif Hacılı, eləcə də, AXP sədri Pənah Hüseyn nədənsə, bu məsələyə mövqe bildirməkdən yayınırlar

N.Cəfərli, həmçinin, bildirib ki, vaxtilə Rəsul Quliyev ADP-yə rəhbərlik etdiyi zamanlarda, o, S.Cəlaloğluya yaxşı pul xərcləyib və indi orada yoxdur deyə, ADP-də adam da qalmayıb: "Vaxtilə ADP də güclü partiya idi. Rəsul Quliyevlə bir yerdə idilər və ondan maliyyə alırdılar. Elə ki, bu əlaqələr kəsildi, ADP yox olub getdi".

"Sərdar Cəlaloğlu bu fikirləri ilə dünyadan və siyasətdən bixəbər olduğunu bir daha göstərdi. Onun siyasətlə məşğul olması, sadəcə, vaxt itkisidir"-deyə "REAL"ın icraçı katibi ADP sədrini sərt şəkildə ittiham edib.

Maraqlıdır ki, tərəflər arasında baş verən bu qarşıdurmalara hadisələrin şahidi olmuş AXCP sədri Əli Kərimli, Müsavatın sabiq başqanı İsa Qəmbər və hazırkı sədri Arif Hacılı, eləcə də, AXP sədri Pənah Hüseyn nədənsə, bu məsələyə mövqe bildirməkdən yayınırlar. Görünür, onların da ya ADP sədri S.Cəlaloğlu, ya da "REAL"çılar qarşısında başlarını aşağı edəcək işləri var. Hər halda, bu məsələnin şişərək, müxalifətin bəlli cinahına da sıçraya biləcəyini indidən ehtimal etmək olar.

***R.RƏSULOV***

## Yerevanın mərkəzində müxalifətçilərin həbsi davam edir



Müxalifətin etiraz aksiyasının keçirildiyi Yerevanın mərkəzinə əlavə polis qüvvələri cəmlənir. Nümayiş iştirakçılarının həbsi davam edir. AZƏRTAC TASS informasiya agentliyinə istinadla xəbər verir ki, aksiya iştirakçıları üçüncü hökumət binasının qarşısını bağlamağa çalışır. Polis rəisinin müavini general Samvel Ovannisyanın hadisə yerinə gəldiyi bildirilir. O, jurnalistləri polisin işinə maneə olmamağa və kütləyə qarışmamağa çağırıb.

İndiyə qədər 17 aksiya iştirakçısı polis bölmələrinə aparılıb. Qanun keşikçiləri hökumət binasının girişini müxalifətçilərdən təmizləyib, nazirlik və digər qurumların əməkdaşları yalnız bundan sonra iş yerlərinə keçə biliblər. Etiraz aksiyasının rəhbəri - Ermənistan parlamentinin deputatı Nikol Paşinyan bir qrup tərəfdarı ilə polis tərəfindən mühafizə alınan hökumət binasının yaxınlığına gəlib. O, mitinq iştirakçılarına işə çıxmamağa və aksiyanı davam etdirməyə çağırıb. Qeyd edək ki, aprelin 19-da baş nazir Serj Sarkisyanın sədrliyi ilə ölkənin yeni hökumətinin ilk iclası keçiriləcək. Ötən gün müxalifət nazirləri iclasa buraxmamaq üçün hökumət binasının giriş-çıxışını bağlamaq niyyətində olduğunu bildirmişdi.

## Paytaxt sakinindən 5 kiloqramdan çox marixuana götürülüb



Respublikanın daxili işlər orqanları narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirlərini uğurla davam etdirir.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu istiqamətdə aprelin 18-də keçirilən tədbirlər nəticəsində 5 kiloqramdan artıq narkotik vasitə götürülərək qanunsuz dövriyyədən çıxarılıb. Əldə edilmiş məlumat əsasında Nərimanov Rayon Polis İdarəsinin 17-ci polis şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılan Bakı şəhər sakini Eşqin Nəzərovdan çəkisi 5 kiloqram 150 qram marixuana götürülüb.

Sabirabad Rayon Polis Şöbəsi əməkdaşlarının əldə edilmiş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Suqovuşan kənd sakini Emin Qasımova məxsus həyətyanı sahədən kultivasiya yolu ilə yetişdirilmiş 12 ədəd çətənə kolu aşkarlanaraq götürülüb. Saxlanılan şəxslər götürülmüş maddi sübutlarla birgə istintaqa təhvil veriliblər. Faktlarla bağlı araşdırmalar aparılır.

## Siyəzəndə qonşusunun evindən oğurluq edən şəxs saxlanılıb



Siyəzəndə oğurluq faktının üstü açılıb. DİN Mətbuat Xidmətinin Quba regional qrupundan APA-nın yerli bürosuna verilən məlumata görə, aprelin 3-də Bakı şəhər sakini Gülçin Əmiraslanov Siyəzən RPŞ-nə ərizə ilə müraciət edərək Zarat kənd ərazisində yerləşən evindən ümumi dəyəri 4270 manat olan 1 ədəd qaynaq aparatı, 1 ədəd kondisioner mühərriki, 1 ədəd otbiçən maşının mühərriki, 480 metr elektrik naqili, xalça, su mühərriki və müxtəlif məişət əşyalarının oğurlandığını bildirib.

Siyəzən Rayon Polis Şöbəsi əməkdaşlarından ibarət əməliyyat qrupu oğurluğu törətməkdə şübhəli bilinən şəxsi saxlayıb. Araşdırmalarla onun həmin kənd sakini, əvvəllər məhkum olunmuş Şərafəddin Fərzəliyev olduğu məlum olub. Dindirilmə zamanı o törətdiyi cinayəti etiraf edib, evdə yaşayış olmadığından istifadə edərək oğurluğu törətdiyini bildirib.

Faktla bağlı Siyəzən RPŞ-nin istintaq bölməsində cinayət işi açılıb, araşdırmalar davam etdirilir.

## Sumqayıtda mənzildən qadın meyiti tapılıb



Sumqayıtda mənzildən 77 yaşlı qadın meyiti tapılıb. Trend Fövqəladə Hallar Nazirliyinin saytına istinadən xəbər verir ki, Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinə daxil olmuş məlumata əsasən, Sumqayıt şəhərində 1 nəfər mənzildə bağlı qapı arxasında köməksiz vəziyyətdə qalıb. Hadisə yerinə cəlb olunmuş Sumqayıt Regional Mərkəzinin müvafiq xilasetmə qüvvələri giriş qapısını açıb və orada aşkarlanan 1941-ci il təvəllüdlü Culayeva Qalina Vasilyevnanın cəsədini aidiyyəti üzrə təhvil veriblər. Əməliyyat başa çatıb.

## Bakıda mənzildə yanğın - 3 uşaq xilas edilib



Bakının Yasamal rayonunda yanğın olub. Trend Fövqəladə Hallar Nazirliyinin saytına istinadən xəbər verir ki, ümumi sahəsi 60 kv.m olan 3 otaqlı mənzilin 1 otağının yanar konstruksiyaları 8 kv.m sahədə yanıb. Yanğın zamanı yanğınsöndürənlər tərəfindən 3 nəfər azyaşlı mənzildən xilas edilərək aidiyyəti üzrə təhvil verilib. Mənzilin qalan hissəsi yanğından mühafizə olunub. Yanğın yanğın bölmələri tərəfindən söndürülüb.

# Ümumi seçki hüququna dair əsas anlayışlar və prinsiplər

***Seçkilər Milli Məclisə, Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə, bələdiyyələrə seçkilər zamanı ölkə vətəndaşlarının səsverməsi, konstitusiya ilə müəyyən olunan məsələlərə dair referendumun keçirilməsidir. Seçici dedikdə, seçki hüququna malik olan şəxs başa düşülür. 18 yaşına çatmış, fəaliyyət qabiliyyətli hər bir Azərbaycan vətəndaşı seçici ola bilər.***

Ölkə vətəndaşları seçkilərdə ümumi, bərbər və birbaşa seçki hüququ əsasında gizli və şəxsi səsvermə yolu ilə iştirak edirlər.

"Seçki hüququna dair praktikum" kitabında göstərildiyi kimi, ümumı seçki hüququ irqindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və başqa ictimai birliklərə mənsubiyyətindən və ya digər statusundan asılı olmayaraq, ölkə vətəndaşlarının seçmək, seçilmək və referendumda iştirak hüququdur.

Bərabər seçki hüququ, vətəndaşların seçkilərdə və referendumda bərabər əsaslarla iştirakı, səsvermə zamanı hər bir vətəndaşın bir səsinin olması və hər bir səsin eyni hüquqi qüvvəyə malikliyi kimi başa düşülür.

Birbaşa seçki hüququ dedikdə, vətəndaşların seçkilərdə namizədin lehinə, referenduma çıxarılan məsələnin lehinə və ya əleyhinə şəxsən səs verməleri başa düşülür. Səsvermə zamanı başqa şəxslərin əvəzinə səs vermək qadağandır.

Başqasının əvəzinə səs verən və ya bunun üçün şərait yaradan şəxs Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində göstərilən məsuliyyətə cəlb olunurlar.

Vətəndaşlar seçkilərdə azad və könüllü iştirak edirlər. Səsvermənin gizliliyi seçkilər və referendum zamanı səsvermənin gizli olmasıdır. Yəni seçici səs verərkən, kimsə ona nəzarət edə və seçicini kiməsə səs verməyə məcbur edə bilməz.

Konstitusiyanın 55-ci maddəsinə əsasən, ölkə vətəndaşları dövlətin idarə olunmasında, bilavasitə və ya nümayəndələri vasitəsi ilə iştirak etməlidirlər.

Aktiv seçki hüququ Milli Məclisə, prezident, bələdiyyə seçkiləri, referendumun keçirilməsi günü (həmin gün də daxil olmaqla) 18 yaşına çatmış ölkə vətəndaşının seçmək, referendumda səs vermək, seçkilərin (referendumun) gedişini müşahidə etmək, seçkiqabağı (referendum qabağı) təşviqatda iştirak etmək, Seçki Məcəlləsi (bundan sonra - SM) ilə nəzərdə tutulmuş seçki hərəkətlərində və referendumun hazırlanması ilə bağlı hərəkətlərin həyata keçirilməsində iştirak etmək hüququdur (SM, 12.1-ci maddə).

18 yaşına çatmış Azərbaycan Respublikasının vətəndaşları və ölkə ərazisində 5 ildən az olmayaraq, daimi yaşayan vətəndaşlığı olmayan şəxslər seçkilər və referendum zamanı səsvermədə iştirak edə bilərlər (SM, 12.2-ci maddə).

Xarici ölkə vətəndaşları 18 yaşı tamam olduqda, müvafiq bələdiyyənin ərazisində 5 ildən az olmayaraq yaşayarsa, yalnız bələdiyyə seçkiləri zamanı səsvermədə iştirak edə bilərlər. Lakin bir şərtlə: onların vətəndaşı olduqları dövlətlərdə əcnəbilərin bələdiyyələrə seçkilər zamanı eyni hüquqları tanınmış olsun (SM, 12.2-ci maddə).

Adıçəkilən kitabda qeyd edilir ki, məhkəmənin qərarı ilə fəaliyyət qabiliyyətsizliyi təsdiq olunmuş şəxslər seçkilərdə, habelə, referendumda iştirak etmək hüququndan, yəni aktiv seçki hüququndan məhrumdurlar (SM, 12.4-cü maddə).

Passiv seçki hüququ vətəndaşların qanunla nəzərdə tutulan tələblərə cavab verdikdə, Milli Məclisin deputatı, prezident, bələdiyyə üzvü seçilmək hüququnun olmasıdır (SM, 13.1-ci maddə).

Seçkilərdə məhdudiyyətlər nəzərdə tutulub. Belə ki, ikili vətəndaşlığı olan, başqa dövlətlər qarşısında öhdəliyi olan (həmin öhdəliklərə xitam verilənədək), icra və ya məhkəmə hakimiyyəti sistemlərində qulluq edən, din xadimləri, fəaliyyət qabiliyyətsizliyi məhkəmə tərəfindən təsdiq edilən, Cinayət Məcəlləsinin 15.4-15.5-ci maddələrində nəzərdə tutulan ağır cinayətlərə görə məhkum olunmuş şəxslər, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrumetmə yerlərində cəza çəkən şəxslərin passiv seçki hüququ məhdudlaşdırılır (SM, 12-14-cü maddələr).

Bundan başqa, Milli Məclisin deputatı seçilmək üçün 25 yaş, ölkə prezidentliyinə seçilmək üçün isə 35 yaş tələb olunur. Dövlət orqanlarında seçkili və təyinatlı vəzifə tutan şəxslər seçkilərdə iştirak etmək üçün namizədliklərini irəli sürdükdə, səsvermə gününə ən geci 55 gün qalmış tutduqları vəzifədən azad olunmaq haqqında ərizə verməlidirlər.

Səsvermə günü təyyarələrdə və hava limanlarında, qatarlarda və dəmir yolu vağzallarında, ekspedisiyalarda olan vətəndaşlar həmin vaxt səsvermədə iştirak etmirlər.

Səsvermə günü üzən gəmilərdə, Xəzər dənizinin Azərbaycan Respublikasına məxsus sektorunda yerləşən neft və qaz hasilatı platformalarında səsvermə günü məntəqə-seçki komissiyası yaradılmayıbsa, həmin gəmilərdə və platformalarda olan vətəndaşlar səsvermədə iştirak etmirlər.

Səsvermə günü xarici dövlətdə Azərbaycan Respublikasının diplomatik nümayəndəliyi və ya konsul idarəsi mövcud deyilsə və ya diplomatik nümayəndəliklərdə məntəqə-seçki komissiyaları yaradılmayıbsa, həmin dövlətlərdə olan vətəndaşlar səsvermədə iştirak etmirlər.

Səsvermə günü xarici dövlətlərdə olan Azərbaycan Respublikasının vətəndaşları üçün Milli Məclisin deputatlarının və bələdiyyə üzvlərinin seçiciləri üzrə səsvermə keçirilmir (SM, 16-cı maddə).

Mərkəzi Seçki Komissiyası Milli Məclis deputatlarının, prezident, bələdiyyələrə seçkilərin və referendumun hazırlanmasını və keçirilməsini təmin edir.

Seçki Məcəlləsinin 24-cü maddəsinə əsasən, MSK 18 nəfər üzvdən ibarətdir. Lakin Azərbaycan Respublikasının Seçki Məcəlləsinin təsdiq edilməsi və qüvvəyə minməsi haqqında 27 may 2003-cü il tarixli Qanunun 2-ci maddəsinə əsasən, SM-in 24-cü maddəsi 2005-ci ildə yeni seçilmiş Milli Məclisin birinci iclas günü qüvvəyə minir. Həmin Qanunun 3,1-ci maddəsinə əsasən, bu müddətə qədər MSK 15 üzvdən ibarətdir.

MSK üzvləri Milli Məclis tərəfindən seçilir. Azərbaycan Respublikasının Seçki Məcəlləsinin təsdiq edilməsi və qüvvəyə minməsi haqqında 27 may 2003-cü il tarixli Qanunun 3.2-ci maddəsinə əsasən, onların 6 üzvü vahid çoxmandatlı seçki dairəsi üzrə seçilmiş deputatları MM-də çoxluq təşkil edən və onların namizədliklərini təqdim edən siyasi partiyanın, 3 üzvü vahid çoxmandatlı seçki dairəsi üzrə seçilmiş deputatları MM-də azlıq təşkil edən və onların namizədliklərini təqdim edən siyasi partiyaları, 3 üzvü birmandatlı seçki dairələri üzrə seçilmiş, çoxmandatlı seçki dairəsi üzrə seçkilər nəticəsində MM-də təmsil olunmayan siyasi partiyaları təmsil edən və ya müstəqil qaydada seçilən və onların namizədliklərini təqdim edən deputatları, 3 üzvü isə vahid çoxmandatlı seçki dairəsi üzrə seçkilərdə iştirak edən və onların namizədliklərini təqdim edən, MM-də təmsil olunmayan və vahid çoxmandatlı seçki dairəsi üzrə seçkilər zamanı ən çox səs qazanmış 4 siyasi partiyanı təmsil edirlər.




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Seçki Məcəlləsinin 24-cü maddəsinə əsasən, MSK-nın 6 üzvü deputatları MM-də çoxluq təşkil edən və onların namizədliklərini Dairə-Seçki Komissiyaları MSK tərəfindən yaradılır və onların sayı 125-dir.

DSK-lar hər 5 ildən bir yaradılır.

Seçki dairələri, bir qayda olaraq, seçicilərin orta təmsilçilik norması əsasında yaradılır. Seçicilərin orta təmsilçilik norması qeydə alınmış seçicilərin ümumi sayının 125-ə bölünməsi yolu ilə müəyyənləşdirilir.

İnzibati-ərazi vahidinin hüdudları daxilində, bir qayda olaraq, orta təmsilçilik normasından 5 faizdən, yolu çətin və ucqar yerlərdə isə 10 faizdən çox (az) olmamaq şərti ilə onların ərazisində qeydə alınmış seçicilərin sayı seçki dairələrində təqribən bərabər olmalıdır.

Aralarında sərhəd olmayan inzibati-ərazi vahidləri üzrə seçki dairəsinin yaradılmasına yol verilmir.

DSK-lar MSK tərəfindən səsvermə gününə 90 gün qalmış DSK üzvləri MSK tərəfindən təyin edilirlər.

- seçki dairəsinin ərazisində məntəqə-seçki komissiyalarına seçki məntəqələrində səsvermənin keçirilməsi işində təşkilati-texniki köməklik göstərir;

- məntəqə-seçki komissiyalarının fəaliyyətini əlaqələndirir;

- məntəqə-seçki komissiyalarının üzvlərini təlimatlandırır;

- məntəqə-seçki komissiyasının qanunsuz qərarlarını ləğv edir;

- MSK-nın təsdiq etdiyi qaydalara uyğun olaraq seçki sənədlərinin saxlanmasını təmin edir;

- seçkilərin hazırlanması və keçirilməsi ilə əlaqədar sənədlərin, o cümlədən, səsvermənin (seçkilərin) nəticələri haqqında protokolların MSK-ya verilməsini təmin edir.

DSK Katibliyi öz işini MSK tərəfindən təsdiq edilmiş Dairə Seçki Komissiyasının Reqlamenti əsasında qurur.

DSK Katibliyi isə MSK tərəfindən təsdiq edilmiş Əsasnaməyə uyğun olaraq fəaliyyət göstərir.

DSK-nın qərarları komissiyanın iclasında 9 üzv iştirak etdikdə, azı 6 üzvün, 8 və ya 7 üzv iştirak etdikdə, azı 5 üzvün, 6 üzv iştirak etdikdə, azı 4 üzvün lehinə səs verməsi nəticəsində qəbul edilir.

DSK-nın qərarı 24 saat ərzində dərc edilməlidir və dərc olunduğu gündən qüvvəyə minir.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

# səs

Son səhifə 20 aprel


## Diş ağrısına daha yaxşı təsir edən dərmanlar açıqlanıb



Diş ağrısından əziyyət çəkən insanlar stomatoloqa müraciət edənədək ağrını necə azaltmaq barədə düşünürlər. Amerikan alimləri 460 tədqiqatın nəticələrini təhlil edərək bunun cavabını tapıblar: diş ağrısına qarşı ən təsirli vasitə iltihaba qarşı nesteroidli preparatlardır.

AZƏRTAC Rusiya KİV-lərinə istinadla xəbər verir ki, bu preparatların alternativi opioid dərman vasitələridir. Lakin sonuncuların çoxlu kənar təsirləri var. İltihaba qarşı nesteroidli preparatların orqanizmə mənfi təsiri bundan qat-qat azdır. Tədqiqatçılar ibuprofen və parasetamol preparatlarının da diş ağrısının müalicəsində faydalı olacağı qənaətindədirlər.

## Yatmazdan əvvəl bunları etməyin!



Yaxşı yuxu sağlamlığın əsas şərtlərindən biridir. Yuxu zamanı insan orqanizmi bərpa olunur, cavanlaşır. Yaxşı yuxu insanın sinir, ürək-damar və immun sistemləri üçün xüsusilə vacibdir. Müasir insanlar arasında yuxu problemləri çox yayılıb. Bunun səbəbləri arasında bizim pis vərdişlərimizdir.

Saglamolun.az sizə yaxşı yuxunun əsas düşmənlərini təqdim edir:

1. Yatmazdan əvvəl çimməyin. Bu bədən hərarətinin artmasına səbəb olur ki, insan yuxuya gedə bilmir. Yatmazdan ən azı 1 ,5 saat əvvəl çimin.

2. Yatmazdan əvvəl telefon, planşet və ya kompüterdən istifadə etməyin. Qecetlərin ekranlarının göy işığı yuxu hormonu olan melatoninin ifrazını pozur.

3. Çay içməyin. Çay kofeinlə zəngindir ki, bu maddə beyini stimullaşdırır. Həmçinin çayın sidikqovucu xüsusiyyətləri var. Bu da yaxşı yuxuya mane olacaq. Alimlər yatmazdan əvvəl yarım-1 stəkan su içməyi tövsiyə edirlər ki, insult və infarktın qarşısını alır.

4. Çox yeməyin. Dolu mədə yaxşı yuxunun əsas düşmənlərindəndir. Lakin acqarına da yatmayın.

5. Fiziki işlə, idmanla məşğul olmayın. Fiziki aktivlik insanı gümrah edir, qanda adrenalin, endorfin hormonlarının (xoşbəxtlik hormonları) səviyyəsi qalxır. Bu isə yuxuya getməyə mane olacaq.

## Portağalın suyunu içmək xəstəlik yaradır?



Qış aylarında qrip olmamaq və immuniteti gücləndirmək üçün çox istifadə edilən portağal meyvə şirəsi əslində bilindiyi kimi faydalı deyilmiş. Lent.az xəbər verir ki, bu meyvə suyu şəkərli diabet xəstəliyinə yoluxmaq riskini yüksəldir. Ancaq bu, o demək deyil ki, tamamilə meyvə şirəsindən imtina etməlisiniz. Mütəxəssislər portağal suyunun içərisində lif olmadığını və bunun da vücudun şəkər dəyərini yüksəltdiyini bildiriblər.

Xüsusilə də Harvard tibbi məktəbində aparılan araşdırmalar zamanı, meyvələrin tərkibində olan lifin, meyvənin sıxıldığı zaman məhv olduğu təsdiq edilib.

Suyunu içmək əvəzinə normal bir portağal yesəniz eyni miqdarda C vitamin və əlavə 3 qram lif qəbul etmiş olacaqsınız.

Gündə 3 dəfə meyvə yemək diabet riskini 18 faiz azaldır. Ayda 3 stəkan alma suyu içən bir insanın diabet olmaq riski isə 15 faiz artır. Gün ərzində bir stəkan portağal suyu içmək isə diabetə tutulmaq riskini 24 faiz artırır. Qeyd edək ki, amerikalı həkim Joanne Lunn meyvələrin tərkibində olan yüksək şəkər miqdarı səbəbi ilə diqqətli istifadə etməyin vacibliyini vurğulayıb.


### Elan

ADPU-nin Filologiya fakültəsinin I kurs tələbəsi Vəlizadə Fidan Fəxrəddin qızına məxsus tələbə bileti itdiyi üçün etibarsız sayılır.


## Azərbaycan ikinci Beynəlxalq həmrəylik tennis çempionatına ev sahibliyi edəcək




Aprelin 19-da Bakıda Azərbaycan Milli Olimpiya Komitəsi (MOK) və İslam Həmrəyliyi İdman Federasiyası (İHİF) arasında anlaşma memorandumu imzalanıb. Mərasim İslam Əməkdaşlıq Təşkilatı (İƏT) ölkələrinin Gənclər və İdman Nazirləri Konfransının 4-cü sessiyası çərçivəsində keçirilib. AZƏRTAC xəbər verir ki, memorandumu MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə və İHİF-in baş katibi Məhəmməd Əl-Qarnas imzalayıblar.

Memorandumun məqsədi İHİF-ə üzv ölkələrin idmançıları arasında İslam həmrəyliyini möhkəmləndirmək, ən yüksək idman dəyərləri və prinsiplərini qoruyub saxlamaq, İslam ölkələrində idman və Olimpiya hərəkatını təbliğ etmək və İHİF üzv ölkələrinin gəncləri arasında birlik və qardaşlığı təbliğ etməkdir. Əməkdaşlığı inkişaf etdirmək üçün Azərbaycan bu ilin iyulunda ikinci Beynəlxalq həmrəylik tennis çempionatına ev sahibliyi edəcək. Memorandum “Bakı-2017” IV İslam Həmrəyliyi Oyunlarının irsi kimi dəyərləndirilib.

## “Qalatasaray”ın qadın basketbolçuları Avropa Kubokunu qazanıblar



İstanbulun “Qalatasaray” klubunun qadın basketbolçuları Avropa Kuboku turnirinin qızıl medalını qazanıblar. AZƏRTAC xəbər verir ki, istanbullular iki oyunluq final qarşılaşmasının cavab matçında İtaliyanın “Reyer” klubuna 65:72 hesabı ilə uduzsalar da, ilk oyundakı 90:68 hesablı qələbə sayəsində çempion olublar. Bu il mübarizəyə Avropa Liqa turnirində başlayan “Qalatasaray” 14 qarşılaşmada 6 qələbə və 8 məğlubiyyətdən sonra Avropa Kuboku turnirində yarışmalı olmuşdu. “Qalatasaray”ın qadın basketbol komandası Avropa Kubokunun yarımfinalında İspaniyanın “Perfumerias Avenida” klubunu mübarizədən kənarlaşdırıb (69:62, 55:57).

## Azərbaycan gimnastları II Avropa Oyunlarına lisenziyalar qazanıblar

MINSK 2019 2nd EUROPEAN GAMES

Azərbaycan gimnastları gələn il Belarusun paytaxtı Minskdə təşkil olunacaq II Avropa Oyunlarına ilk lisenziyaları əldə ediblər. AZƏRTAC xəbər verir ki, bu günlərdə Bakıda keçirilmiş batut gimnastikası üzrə Avropa çempionatında iki kişi və iki qadın batutçumuz lisenziyalara sahib olublar. Bununla da, II Avropa Oyunlarında batut gimnastikası üzrə yarışlarda millimiz maksimum sayla - dörd nəfərlə təmsil ediləcək. Növbəti lisenziya xəbəri isə akrobatlarımızdan gəlib. Ötən həftə Belçikanın Antverpen şəhərində keçirilən dünya çempionatında qarışıq cütlüyümüzün uğurlu çıxışları onlara da Avropa Oyunlarına yol açıb. Böyüklər kateqoriyasında qadın qrupumuz olmadığından Oyunlarda bu növ üzrə yalnız qarışıq cütlüklərimiz mübarizə aparacaqlar. Gimnastikanın digər növlərinə gəldikdə isə, idmançılarımız bu il keçiriləcək bədii gimnastika üzrə Avropa çempionatında, aerobika gimnastikası üzrə dünya çempionatında, idman gimnastikası üzrə həm bu il, həm də 2019-cu ildə keçiriləcək Avropa çempionatlarında lisenziyalar uğrunda yarışacaqlar.

## “Barselona” Umtitinin qiymətini qaldırır - 250 milyon



“Barselona” futbolçusu Samuel Umtiti ilə müqaviləni yeniləmək üçün danışıqları davam etdirir. Qol.az-ın İspaniya mətbuatına istinadən yaydığı xəbərə görə, ilk 2 cəhdi uğursuz alınan Kataloniya klubu fransız futbolçu ilə ortaq məxrəcə gəlməyə çalışır. Digər tərəfdən isə “Barselona” rəhbərliyi 24 yaşlı müdafiəçi üçün müəyyənləşdirdikləri 60 milyon avroluq təzminat qiymətini 250 milyona qaldırmaq istəyir. Qeyd edək ki, Umtitinin hazırkı müqaviləsinin müddəti 2021-ci ilə kimidir.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**